RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 15 (9470) 25 YANVAR 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını dayandırdı

## AŞPA-da mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti qurumu tərk etdi

"Demokratiya" adı altında həyasızcasına başqa xalqların, ölkələrin işlərinə burunlarını soxan, çıxarları naminə hər cür çirkin əməllər törədən Qərb dairələri Azərbaycanın Cənubi Qafqazın lideri olmasını heç cür həzm edə bilmirlər. Məhz Azərbaycanın siyasi iradəsi, qətiyyəti, hərbi gücü sayəsində bu regionda real sülh şəraitinin yetişməsi ilə barışa bilmirlər.

Axı riyakar Qərbin Cənubi Qafqazla bağlı başqa planları var idi və onlar bu bölgədə daim müharibə, münaqişə olmasında maraqlı idilər. Həm bunun sayəsində erməni lobbisinin pullarını rahat şəkildə yeyə bilirdilər, həm də siyasi iradəsi olmayan Ermənistandan istifadə edərək bölgəyə rahat yerləşmək imkanı tapırdılar.

İndi isə bütün bu imkanları əllərindən çıxan "insan hüquqlarının keşikçiləri" əsl simalarını, əslində, simasızlıqlarını çılpaqlığı ilə göstərməyə başlayıblar.

→ 3




# Seçkilərin demokratik keçirilməsi üçün bütün tədbirlər görülür

Faktlardan, məlumatlardan göründüyü kimi, artıq seçki məntəqələri seçiciləri qəbul etməyə tam hazır vəziyyətdədir. Azərbaycan vətəndaşlarının rahat səs vermələri üçün dairə və məntəqələrdə hərtərəfli şərait yaradılıb. Seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsi təmin olunub. Bir qalır vətəndaşların seçkilərdə fəal iştirakı. Əminliklə demək olar ki, seçicilər fevral ayının 7-də hərtərəfli şərait yaradılmış məntəqələrə gələrək vətəndaş mövqeyini ifadə edəcək və ən yaxşı namizədə səs verəcəklər.

→ 6

# Ümidlər doğrulur

## İndi ölkəmizin ərzaqla təminatı əsasən Azərbaycan kəndinin üzərinə düşür



Ümumiyyətlə, son 20 ildə kənd təsərrüfatındakı irəliləyişin rəqəmlərdə ifadəsinə nəzər salaq: bu illər ərzində istehsal həcmi real ifadədə 2,1 dəfədən çox artıb. Bununla da qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi aqrar sahənin payına düşüb.

İki onillik müddətində əkin sahələri 25,9 faiz artıb. Görülən ardıcıl tədbirlər sayəsində kənd təsərrüfatına investisiya qoyuluşu 11 dəfə yüksəlib. Əsas kənd təsərrüfatı bitkilərinin istehsalında əhəmiyyətli artım əldə edilib. Belə ki, dənli və dənli paxlalıların istehsalında 57,9 faiz artıma nail olunub. Digər bitkilərin də istehsalı artıb (kartof 31,4 faiz, meyvə və giləmeyvə 2,2 dəfə, tərəvəz 74,5 faiz, pambıq 2,8, üzüm 3,5 dəfə, çay19 faiz).

→ 8

# Azərbaycanın sosial müdafiə sistemi müasir tələblər səviyyəsindədir

Bu gün ölkəmizin sosial müdafiə istiqamətində apardığı islahatlar sayəsində Azərbaycan modeli formalaşıb. Həmin modelin təməlində Azərbaycan vətəndaşının rifahı, sosial güvənliyi dayanır. Özü də vətəndaş rifahının yaxşılaşması istiqamətində görülən işlər yalnız maaşların, pensiya və müavinətlərin artması ilə yekunlaşmır. Azərbaycanda aparılan sosial siyasətin məzmunu həm də əhalinin, onların məşğulluğunun artırılması, daha yaxşı yaşamaları üçün əlavə gəlirlər əldə edə bilməsi üçün şəraitin yaradılmasından ibarətdir. Son 20 ildə 2 milyondan çox iş yerinin açılması, işsizliyin 40 faizdən 5, yoxsulluğun 49 faizdən 5 faizə enməsi bu uğurlu siyasətin təsdiqidir.

→ 8

# Siyasi korrupsiya, etnik və dini nifrət, ikili standartlar, şovinizm...

## Nümayəndə heyətimiz "Dünyada heç kim Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməz" deyərək AŞPA-da iştirakını dayandırdı

**Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. AZƏRTAC bəyanatı təqdim edir.**

"Azərbaycan Respublikası qürurlu, müstəqil, suveren, demokratik və multikultural bir dövlətdir. Demokratiya bizim şüurlu seçimimizdir və biz 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanda insan hüquqlarının müdafiəsi və qanunun aliliyinin təmin edilməsi istiqamətində böyük irəliləyişlərə nail olmuşuq.

Avropa Şurası Parlament Assambleyasının əsas məqsədi müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdan ibarətdir.

Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olanda insan haqlarını və qanunun aliliyini müdafiə etmək məqsədi daşıyan bu təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında Azərbaycana kömək edəcəyi və beləliklə regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağı barədə səmimi bir ümid və gözlənti var idi.

2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı dövləti - Ermənistanı Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd hərəkətlərinə görə cavab vermək barədə qınamayıb. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir.

→ 3

# AŞPA ilə əlaqələr kəsildi

## Bu, Azərbaycanla başqa dillə danışmaq istəyən bütün dairələrə ciddi mesajdır

Əgər AŞPA insan haqlarının ayrılmaz, universal, ali və konsensual xarakter daşıması reallığını qəbul edirsə, sayı hər ötən gün şişirdilən Qarabağ ermənilərinin könüllü köçündə prinsipial olaraq həssasdırsa, 350 mindən artıq qərbi azərbaycanlının öz ata-baba yurduna qayıtmaq hüququnu niyə görməzdən gəlir?

Görünən odur ki, AŞPA-nın "həssaslığ"ı yalnız ucuz və təcavüzkar məqsədlərə xidmət edir. "Yaxud Frank Şvabenin "Parisdə yazılmış" çıxışında Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılması üçün əsas gətirdiyi səbəblərdən digəri - Azərbaycanda "siyasi məhbuslar" olması məsələsinin bu kürsüdən səslənməsi özlüyündə riyakarlıq və saxtakarlıq olmaqla, həm də təhlükəli presedent yaradan ciddi qanunsuzluqdur.

→ 4

# *Səməd SEYİDOV:*

## "Avropa Şurası daxilində danışıq aparmaq, dialoq qurmaq, mövcud vəziyyəti izah etmək mümkün deyil"

Dialoq, qarşılıqlı hörmət əsasında işləməsi tələb olunan AŞPA, əslində, bütün bu dəyərlərdən çox uzaqdır. AŞPA-da bəzi avropalı parlamentarilər azərbaycançılığa, türkçülüyə, islama, əməkdaşlığa, qarşılıqlı hörmətə qarşı çıxaraq, növbədənkənar prezident seçkilərinə müdaxilə edib ölkəmizdə demokratik şəkildə fəaliyyət göstərən institutlara kölgə salmaq, bununla da Azərbaycana zərbə vurmaq istəyirdilər. İyirmi il ərzində bu təşkilat Ermənistana qarşı heç bir sanksiya tətbiq etmədiyi, yüz minlərlə qaçqın və köçkün azərbaycanlıya hər hansı mesaj göndərmədiyi, onların problemləri ilə məşğul olmadığı və hətta nümayəndə heyətimizə bu problemlərlə məşğul olmağa qadağa qoyduğu halda, Azərbaycan öz torpaqlarını azad edəndən, ərazi bütövlüyünü və suverenliyini, sərhədlərini tam şəkildə bərpa edəndən sonra buradakı parlamentarilər ölkəmizə qarşı ciddcəhdlə belə bir kampaniya başlamışdılar.

→ 4

# Zəngəzur dəhlizi açılarsa...

## Bu, Azərbaycan-Ermənistan əməkdaşlığı üçün yaxşı başlanğıc ola bilər

Bu gün ərazilərini işğaldan tam azad etmiş, dövlət suverenliyini möhkəmləndirmiş daha güclü Azərbaycan mövcuddur. Ona görə də Ermənistan kiminlə qonşu olduğunu anlamalı və bilməlidir ki, onların xəyal etdikləri şərait regionda heç zaman yaranmayacaq. Azərbaycanın Zəngəzur dəhlizinin açılması ilə bağlı təklifi Ermənistanın suverenliyini təhdid xarakteri daşımır. İrəvanın öhdəliklərdən boyun qaçırmaq üçün əsassız bəhanələr uydurması nəticə verməyəcək. Beynəlxalq təcrübəyə cavab verən Zəngəzur dəhlizinin açılması təklifi reallaşacağı halda, həm Azərbaycan, həm də Ermənistan iqtisadi dividendlər əldə edəcək. O zaman bu layihənin nə qədər yararlı olduğu bir daha məlum olacaq.

→ 4

# Füzuliyə köç davam edir



Baş plana əsasən, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri yaradılacaq.

→ 5

# "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

İsmayılov Dağbəyi Mirzəxan oğlu

**Müşahidə Şurasının üzvləri:**

Əliyev Vüqar Zifər oğlu
Mehrəliyeva Şəfəq Akif qızı
Mikayılova Sevil Əlirazı qızı
Şıxlinskiy Elçin İsmayıl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2024-cü il*

# M.C.Əhmədovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Camal oğlu Əhmədov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 yanvar 2024-cü il*

# Qafqaz Müsəlmanları İdarəsinin sədri özbəkistanlı həmkarı ilə görüşüb

Yanvarın 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Nuriddin Xoliknazarovu qəbul edib.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Şeyxülislam Azərbaycanla Özbəkistan arasında tarixi ənənələrə söykənən dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, qarşılıqlı səfərlər, müxtəlif sahələri əhatə edən sənədlərin imzalanması bu əlaqələrin daha da inkişafına töhfə verməkdədir.

İki ölkənin dini idarələri arasında münasibətlərin səviyyəsindən məmnunluğunu bildirən Şeyxülislam bu əməkdaşlığın səmərəli və davamlı olacağına inandığını deyib.

A.Paşazadə Özbəkistan Müsəlmanları İdarəsinin də təmsil olunduğu Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarələri Rəhbərləri Şurasının 2022-ci il oktyabrın 20-də Şuşada imzalanan əsasnaməsini tarixi sənəd adlandırıb, qurumun ötən ilin noyabrında Buxaradakı toplantısının təşkilinə görə müfti Nuriddin Xoliknazarova təşəkkürünü bildirib.

Müfti Nuriddin Xoliknazarov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını Şeyxülislama çatdırıb. Azərbaycana hər gəlişində böyük inkişafın şahidi olduğunu vurğulayan qonaq ərazi bütövlüyünün təmin edilməsi münasibətilə xalqımızı təbrik edib.

Görüş zamanı iki qurum arasında əməkdaşlığın perspektivləri, TDT Müsəlman Dini İdarələri Rəhbərləri Şurası çərçivəsində görüləcək işlər barədə müzakirə aparılıb.

# Müdafiə Sənayesi Nazirliyinin nümayəndə heyəti BƏƏ-nin hərbi sənaye kompleksi müəssisələri ilə tanış olub

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində "UMEX-2024" pilotsuz sistemlər üzrə sərgi və konfrans işə başlayıb.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, BƏƏ-nin prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın himayəsi, Müdafiə Nazirliyinin dəstəyi və "ADNEC Group"un təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir. Səfər çərçivəsində nazir V.Mustafayev BƏƏ-nin hərbi sənaye kompleksinin əsasını təşkil edən "Tawazun" Sənaye Parkına daxil olan "Halcon", "Al Tariq", "Lahab", "Nimr" və "Caracal" müəssisələrini ziyarət edərək, istehsal imkanları ilə yaxından tanış olub, həmçinin gələcək əməkdaşlıq və qarşılıqlı səfərlərin təşkili ilə bağlı müzakirələr aparıb.

Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərinin müdafiə işləri üzrə dövlət naziri və Nazirlər Şurasının üzvü Məhəmməd bin Mübarək Fadel Əl Mazrouei və "EDGE" şirkətinin İdarə Heyətinin sədri Faisal Əl Bannai ilə görüşən V.Mustafayev "UMEX-2024" sərgisində iştirak etməkdən məmnunluğunu bildirib. O, BƏƏ ilə əməkdaşlığın Azərbaycanın müdafiə sənayesinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb. O, görüş iştirakçılarını Bakıda keçiriləcək "ADEX-2024" 5-ci Beynəlxalq Müdafiə Sərgisinə dəvət edib.

Görüşlərdə mövcud əməkdaşlığın inkişafı və maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 26 ölkə üzrə 134-dən çox iştirakçının qatıldığı və 500-dən artıq xarici nümayəndənin iştirak etdiyi "UMEX-2024" sərgisində aviasiya və kosmonavtika sahəsinə aid olan texnologiyalar nümayiş etdirilir.

Sərgi yanvarın 25-dək davam edəcək.

# Azərbaycanla Özbəkistan arasında əməkdaşlıq dinamik inkişaf edir

Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 24-də ölkəmizdə səfərdə olan Özbəkistan Ali Məclisinin Qanunverici Palatası Sədrinin birinci müavini Akmal Saidovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Özbəkistan nümayəndə heyətini səmimiyyətlə salamlayan Milli Məclisin Sədri xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyəsindən məmnunluğunu bildirib və qeyd edib ki, xalqlarımız dil, din, tarix, mənəvi cəhətdən oxşardırlar. Spiker Özbəkistan nümayəndə heyətinin belə böyük və nüfuzlu tərkibdə ölkəmizə səfərinin də əlaqələrimizin yüksək səviyyəsinin daha bir göstəricisi olduğunu söyləyib.

Görüşdə qeyd olunub ki, Özbəkistanla Azərbaycan arasında siyasi, iqtisadi, mədəni-humanitar sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Vurğulanıb ki, Azərbaycan və Özbəkistan müstəqil, inkişaf edən və özünü təmin edən ölkələrdir.

Söhbət zamanı Milli Məclisin Sədri parlamentlərarası əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən söhbət açaraq, qanunverici orqanlar arasında münasibətlərin də yüksək səviyyədə olmasını, hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. O özünün Özbəkistana səfərlərini və Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və Ali Məclisin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilovla görüşlərini məmnunluqla xatırlayaraq bildirib ki, bu cür qarşılıqlı səfərlər və müsbət dialoq münasibətlərimizin daha da genişlənməsinə töhfələr verir. Sahibə Qafarova parlamentarilərimizin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, Parlamentlərarası İttifaq, İslam Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası, TürkPA, MDB Parlamentlərarası Assambleya və digər beynəlxalq təşkilatlarda əməkdaşlıq etdiyini bildirib.

Sahibə Qafarova Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlamasından, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunmasından və ölkəmizin öz suverenliyini tam bərpa etməsindən danışıb. Milli Məclisin Sədri qeyd edib ki, Özbəkistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbədən sonra özbək ictimaiyyətinin də böyük sevincinin şahidi olduq. O, işğaldan azad olunmuş Füzuli rayonunda Özbəkistanın tikdiyi məktəbin xalqlarımız və dövlətlərimiz arasındakı doğmalığın bir nümunəsi olduğunu qeyd edib.



Milli Məclisin Sədri təəssüf hissi ilə bildirib ki, hazırda dünyada mövcud olan ikili standartlar bir sıra ölkələrə qarşı ədalətsiz mövqeyin sərgilənməsinə gətirib çıxarıb. O, Azərbaycanın öz torpaqlarını 30 illik işğaldan azad etdikdən sonra bəzi Avropa ölkələrinin və beynəlxalq təşkilatlarının Azərbaycana qarşı qərəzli münasibətinin təəssüf doğurduğunu nəzərə çatdıraraq, dost və qardaş xalqlar olaraq bu kimi hallara, ikili standartlara qarşı birgə mübarizə aparmağın vacibliyini qeyd edib.

Görüşdə həmçinin fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar Prezident seçkiləri ilə bağlı fikir mübadiləsi aparılıb. Milli Məclisin Sədri deyib ki, bu seçkilər Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Azərbaycanın müasir dövlətçilik tarixində ilk dəfədir ki, seçkilər Azərbaycan ərazilərinin hər yerində, o cümlədən işğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə keçiriləcək. Ona görə də növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə həm də Zəfər seçkiləri kimi yazılacaq və Azərbaycan xalqının, Azərbaycan seçicisinin iradəsi bu seçkilərin nəticəsində öz əksini tapacaqdır.

Özbəkistan Ali Məclisinin Qanunverici Palatası Sədrinin birinci müavini Akmal Saidov göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, dost ölkələrimiz arasında münasibətlərin daim inkişaf etdiyini söyləyib. O, dövlətlərimizin və xalqlarımızın oxşar tarixə malik olduğunu diqqətə çatdıraraq, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və inkişafında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edib.

O, dövlət başçılarımızın müəyyən etdiyi xəttə uyğun olaraq, parlamentlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Akmal Saidov Özbəkistanda ötən il keçirilmiş konstitusiya islahatları zamanı Azərbaycanın 2018-ci ildə bu sahədəki təcrübəsindən istifadə olunduğu barədə fikirlərini bölüşüb, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Akmal Saidov Milli Məclisin Sədrinə Özbəkistan və Azərbaycan alimlərinin birgə əməyinin bəhrəsi olan tarix və mədəniyyət sahələrinə dair kitablar təqdim edib. Bu kitablardan biri Azərbaycan, özbək və ingilis dilində nəşr olunan "İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın ictimaiyyət tərəfindən qəbul edilmiş uğurları və nailiyyətləri" kitabıdır. Qeyd edək ki, kitabda ixtisasca hüquqşünas olan Akmal Saidovun ölkəmizin son 20 ildə əldə etdiyi uğurlarına dair beynəlxalq ekspert rəyinə yer verilmişdir. Burada əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabitliyin və təhlükəsizliyin qorunması, davamlı iqtisadi artım, müasir infrastrukturun yaradılması, enerji müstəqillyinin təmin olunması, geniş sosial təminat proqramlarının həyata keçirilməsi, texnoloji tərəqqi və elektron hökumətə keçid və digər uğurlar təhlil olunmuşdur.

Görüşdə Milli Məclisin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov, Parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Özbəkistan parlamentinin nümayəndə heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







Azərbaycanda səfərdə olan Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası Sədrinin birinci müavini Akmal Saidovun başçılıq etdiyi nümayəndə heyəti yanvarın 24-də Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb. Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb. Eyni zamanda "Əbədi məşəl" abidəsi ziyarət olunub. Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatları Cavanşir Paşazadə, Aydın Hüseynov və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Milli Məclisdə görüş

Yanvarın 24-də Milli Məclisin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatası Sədrinin birinci müavini Akmal Saidovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Parlamentin İntizam Komissiyasının sədri, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov Azərbaycanın Özbəkistanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib, Azərbaycan-Özbəkistan qardaşlıq münasibətlərinin çoxəsrlik tarixini vurğulayıb. O, bu gün iki ölkə arasında qarşılıqlı səmərəli əlaqələrin dinamik şəkildə inkişaf etməsində səmimi dostluq münasibətlərinin, yüksək səviyyəli dialoqun və qarşılıqlı anlaşmanın mühüm rol oynadığını diqqətə çatdırıb. Eldar İbrahimov ötən il ölkəmizin bütün ərazisində suverenliyini tam təmin etməsindən söz açıb, Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəklədiyinə görə Özbəkistan tərəfinə təşəkkür edib, Özbəkistanın işğaldan azad edilmiş Füzuli şəhərində müasir məktəb binası inşa etməsini xalqlarımız arasında möhkəm dostluq əlaqələrinin rəmzi kimi qiymətləndirib. Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri ikitərəfli münasibətlərin dərinləşməsində parlamentlərin rolunu vurğulayıb, beynəlxalq platformalarda qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətindən danışıb.

Səmimi görüşə görə təşəkkür edən Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatası Sədrinin birinci müavini Akmal Saidov Azərbaycan və Özbəkistan arasında əlaqələrin uğurla inkişaf etdiyini deyib. Azərbaycanın öz suverenliyini tam təmin etməsinin BMT qətnamələrinə, beynəlxalq hüquqa və tarixi ədalətə uyğun olduğunu bildirib. O, ölkələrimiz arasında çoxəsrlik tarixə malik olan dostluq və qardaşlıq münasibətlərinin genişləndirilməsi, bu istiqamətdə qanunverici orqanların fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.

Sonra Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Cavanşir Paşazadə və Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov çıxış edərək ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Görüşdə Milli Məclisin Hesablayıcı komissiyasının sədri Eldar Quliyev, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Hüseynov, Özbəkistan Ali Məclisi Senatının və Qanunvericilik Palatasının üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Azərbaycan AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını dayandırdı

### AŞPA-da mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti qurumu tərk etdi

**Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırıb. Nümayəndə heyətimiz dünən bununla bağlı bəyanatı səsləndirdikdən sonra məkanı tərk edib.**




Azərbaycanın AŞPA-da səsinin dondurulması kimi riyakar təşəbbüsün irəli sürülməsindən sonra nümayəndə heyətimizin belə bir qərar verməsi ən düzgün və layiqli addımdır və bəyanatda da bildirildiyi kimi, dünyada heç kim Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməz.

#### Riyakarlığın son həddi

Son vaxtlar Qərb təsisatlarının Azərbaycana qarşı riyakar siyasi, diplomatik hücumları xüsusilə intensivləşib. Bunu Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının başladığı ilk gündən heç bir hüquqi əsasa söykənməyən, sırf ölkəmizə olan qərəzindən doğan hikkə ilə Azərbaycanın səsini dondurmaq kimi çirkin təşəbbüsündən də görmək olar.

Eləcə də Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozep Borelin yanvarın 22-də Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları da aydın şəkildə ortaya qoyur ki, islamofob, türkofob siyasət yürüdən Fransa kimi ölkələr, eləcə də Aİ, Avropa Parlamenti, AŞPA və digər qurumlar Azərbaycanı hədəf alan kampaniyalar aparır, böhtan xarakterli bəyanatlar səsləndirir, qərəzli qətnamələr qəbul edir, sanksiyalarla hədələyirlər.

Qərəzli Qərb "siyasətçi"lərinin yuxularına haram qatan, gecə-gündüzlərini dar edən, qıcıqlandıran, qəzəbləndirən, hikkələndirən, özlərindən çıxaran mətləb və məqamlar, əlbəttə ki, çoxdur, amma onları, sözün əsl mənasında, yandırıb-yaxan Azərbaycanın torpaqlarını işğaldan qurtarması, suverenliyini tam təmin etməsidir. Fevralın 7-də Xankəndidə də seçki keçirərək "Qarabağ Azərbaycandır" həqiqətini bütün dünyaya bir daha bəyan edəcəyimiz isə qərəzli Qərb ölkə və təşkilatlarına əsl gözdağıdır.

"Demokratiya" adı altında həyasızcasına başqa xalqların, ölkələrin işlərinə burunlarını soxan, çıxarları naminə hər cür çirkin əməllər törədən Qərb dairələri Azərbaycanın Cənubi Qafqazın lideri olmasını heç cür həzm edə bilmirlər. Məhz Azərbaycanın siyasi iradəsi, qətiyyəti, hərbi gücü sayəsində bu regionda real sülh şəraitinin yetişməsi ilə barışa bilmirlər.

Axı riyakar Qərbin Cənubi Qafqazla bağlı başqa planları var idi və onlar bu bölgədə daim müharibə, münaqişə olmasında maraqlı idilər. Həm bunun sayəsində erməni lobbisinin pullarını rahat şəkildə yeyə bilirdilər, həm də siyasi iradəsi olmayan Ermənistandan istifadə edərək bölgəyə rahat yerləşmək imkanı tapırdılar.

İndi isə bütün bu imkanları əllərindən çıxan "insan hüquqlarının keşikçiləri" əsl simalarını, əslində simasızlıqlarını çılpaqlığı ilə göstərməyə başlayıblar.

Azərbaycan vaxtilə Qarabağ probleminin həllinə olan ümidlərə görə AŞ-yə üzv olmuşdu. Azərbaycan nümayəndə heyətinin bəyanatında da deyildiyi kimi, bu təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında Azərbaycana kömək edəcəyi və beləliklə regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağı barədə səmimi bir ümid və gözlənti var idi.

Amma 19 il ərzində bu qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərinin işğalı faktına qarşı heç bir tədbir görməyib. Halbuki Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə Avropa Şurasının bütün dəyər və prinsiplərini kobud şəkildə tapdalamışdı.

2020-ci ilə qədər Ermənistanı qınamayan, onu səsvermə hüququndan məhrum etmək barədə düşünməyən AŞPA bu gün torpaqlarını işğaldan azad edən, bölgədə sülh üçün münbit şərait yaradan Azərbaycana qarşı qərəzli davranış nümayiş etdirir. Halbuki Azərbaycan ərazilərinin 30 illik işğalına son qoyaraq beynəlxalq hüququn, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsini təmin edib. Beynəlxalq hüquqdan dəm vuran AŞPA-nın bütün bu reallıqların fonunda Azərbaycana iftiralar atması sadəcə riyakarlıqdan xəbər verir.

Azərbaycanın AŞPA-da səsinin dondurulması təklifini Fransanın diktəsi ilə almaniyalı deputat Frank Şvabe irəli sürmüşdü. Bakının müstəmləkəçi Fransanın neokoloniolizm siyasətini dünyada ifşa etməsi, onu ard-arda siyasi, diplomatik cəbhələrdə məğlub etməsi Parisin beynəlxalq nüfuzunu yerlə bir edib. Elə buna görə də Fransa indi arxa plana çəkilərək mənfur əməllərini Almaniyanın əli ilə həyata keçirmək istəyirdi.

#### İkili standartlar, qərəzli iddialar

Beynəlxalq hüququ ayaqlar altına atan belə bir qurumun Azərbaycanın səsini dondurmaq niyyətinin insan hüquqları ilə heç bir əlaqəsi yox idi. Və bu öz suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı qisas cəhdindən, özü də iflasa məhkum qisas cəhdindən başqa bir şey deyildi. Azərbaycan üçün isə nəinki AŞPA-da səsin dondurulması, bu qurumun özü belə heç bir əhəmiyyət kəsb etmirdi və nümayəndə heyətimizin bu qurumla əməkdaşlığı və təşkilatda iştirakı qeyri-müəyyən müddətə dayandırması bunu təsdiq edir.

Eyni zamanda da Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Aİ Komissiyasının vitse-prezidenti Cozep Borelin Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaların ölkəmiz üçün bir qara qəpiklik dəyəri yoxdur. Faktları açıq şəkildə təhrif edərək Azərbaycanın legitim maraqlarına etinasızlıq nümayiş etdirən Aİ-nin ali nümayəndəsinin bu cür məsuliyyətsiz iddiaları Azərbaycan-Aİ münasibətlərinə ciddi zərbədir. Borel səsləndirdiyi iftira dolu həmin iddialarla Azərbaycana qarşı hərbiləşmə və təcavüzkar siyasəti qızışdırır.

Halbuki Azərbaycan hər zaman Ermənistanla danışıqlara, sülhə və sabitliyə sadiq olub. İki ölkə arasında normallaşmaya, bölgədə davamlı sülhə nail olunması üçün əməli addımlar atır. Yuxarıda da vurğulandığı kimi, Azərbaycanın işğala və separatizmə son qoyması sayəsində Ermənistanla sülh sazişinin bağlanmasına real şərait yaradılıb.

Aİ nümayəndəsinin azərbaycanlı diplomatların ölkədən çıxarılması ilə bağlı Fransa ilə həmrəyliyini ifadə etməsi də onun Azərbaycana qarşı qərəzini, beynəlxalq hüququ heçə saymasını göstərir.

Göründüyü kimi, ikilistandartlı və qərəzli Qərb təsisatları ölkəmizə qarşı iftira və böhtanlar səsləndirir, təcavüzkar Ermənistanı silahlandıraraq revanşa qızışdırır, necə deyərlər, "xristian təəssübkeşliyi" edərək erməni dindaşlarına "dəstək" olmaq üçün çabalayırlar. Lakin onların bu çabaları hədər gedəcək və qurduqları bütün məkrli planları iflasa uğrayacaq, Şuşa, Xankəndi zəfərlərimizə görə almaq istədikləri qisasları gözlərində qalacaq.

Beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan milli maraqlarına təhdid olan bütün qüvvələrə qarşı layiqli mübarizə aparacaq və onları qətiyyətlə yerlərinə otuzduracaq. Nümayəndə heyətimizin AŞPA ilə əməkdaşlığı qeyri-müəyyən müddətə dayandırmaq qərarı da Azərbaycanın qətiyyətinin təcəssümü və ölkəmizə qarşı riyakar mövqe tutmuş bu quruma verilən layiqli cavabdır. Azərbaycanın səsini dondurmaq istəyən bir təşkilatda iştirak bizə heç lazım deyil. Bundan itirən AŞPA-nın özü olacaq. Çünki Azərbaycanın AŞPA-da iştirakını dayandırması bu qurumun onsuz da zəifləmiş təməllərini daha da laxladacaq, ona qarşı qlobal etimadsızlıq mühitini daha da gücləndirəcək.

*Rəşad CƏFƏRLİ,*
*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Siyasi korrupsiya, etnik və dini nifrət, ikili standartlar, şovinizm...

### Nümayəndə heyətimiz "Dünyada heç kim Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməz" deyərək AŞPA-da iştirakını dayandırdı

*Əvvəli 1-ci səh.*

Azərbaycanın təcavüz, işğal və zorakı separatizm üzərində tarixi Qələbəsindən, ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasından sonra biz Azərbaycanı ləkələmək, Azərbaycan xalqına uzun müddətdir inkar edilən ədalətin bərpası istiqamətində ölkənin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün təşkil olunmuş qarayaxma kampaniyası ilə üz-üzəyik. Təxminən 20 ilə yaxın müddətdə Azərbaycan nümayəndə heyəti erməni işğalının ağır nəticələrini gündəmə gətirərkən bizə deyirdilər ki, AŞPA münaqişə ilə bağlı məsələlərin müzakirəsi üçün düzgün format deyil. İndi isə həmin AŞPA və həmin deputatlar bunun əksini deyir və Azərbaycana hücum etmək üçün heç bir fürsəti əldən vermirlər. Beynəlxalq hüququn selektiv şərhi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə fərqli yanaşma bu biabırçı təklifin müəlliflərinin rüsvayçı və ikiüzlü xarakterini nümayiş etdirir.

Təəssüf ki, AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikaya çevrilib.

Biz Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsünü bu çirkin kampaniyanın tərkib hissəsi kimi dəyərləndiririk. Biz həmçinin bu təşəbbüsü Azərbaycanda hazırda gedən seçki prosesinə əsassız müdaxiləyə yönəlmiş məqsədyönlü və qəbuledilməz cəhd, ölkəmizdə demokratik təsisatların fəaliyyətinə xələl gətirən məkrli addımların bariz nümunəsi kimi qiymətləndiririk. Nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklif bütövlükdə Avropa Şurasının etibarlılığına və qərəzsizliyinə ciddi zərbə olacaq, bunun ciddi və geri dönməz nəticələrinə görə məsuliyyət tamamilə onun təşəbbüskarlarının üzərinə düşəcək.

Dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər. AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb.

AŞPA-da mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib".

Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

## AŞPA-ya tərs şillə

"Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin səsvermə hüququnun dondurulması ilə bağlı təklif ölkəmizə qarşı riyakar davranışın göstəricisi idi. Buna görə nümayəndə heyətimizin AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırması barədə qərar verməsini təqdirəlayiq hesab edirəm".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Onun sözlərinə görə, ölkəmiz üçün ümumiyyətlə heç bir əhəmiyyət kəsb etməyən AŞPA-nın əleyhimizə qərəzli qərarlar qəbul etməsinin dəfələrlə şahidi olmuşuq: "Müxtəlif vaxtlarda bu qurum Azərbaycanla bağlı qərəzli, həqiqəti əks etdirməyən hesabatlar hazırlayıb. Son qərəzli davranışları ilə AŞPA Azərbaycanı guya insan hüquqlarını pozmaqda ittiham edirdi. Lakin Azərbaycanın nümayəndə heyətinin səsvermə hüququnun dondurulması barədə təşəbbüsün insan hüquqları ilə heç bir əlaqəsinin olmadığı gün kimi aydındır. Sadəcə olaraq, AŞPA suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın zəfərlərini həzm edə bilmədiyindən Azərbaycana qarşı riyakar mövqe tutmuşdu".

Deputat bildirib ki, Ermənistan torpaqlarımızı işğal altında saxlayanda, 1 milyona yaxın azərbaycanlı öz doğma evlərindən qovulanda, onlara qarşı soyqırımı törədiləndə, 100 minlərlə azərbaycanlı Ermənistandan deportasiya olunanda AŞPA bir dəfə olsun belə səsini çıxarmayıb. Ermənistanın törətdiyi bu vəhşiliklərə görə bu ölkəyə qarşı heç bir qərar qəbul etməyib. 44 günlük müharibədə isə Azərbaycan Ermənistanın işğal siyasətinə son qoyub və bütün bunların fonunda Azərbaycanı ittiham etmək qərəzdən başqa heç nə deyil.

Kamilə Əliyevanın sözlərinə görə, Fransa, Almaniya və digər bir sıra Qərb dövlətlərində insanlar hər zaman polis zorakılıqlarına məruz qalır, döyülür, həbs olunurlar: "AŞPA nədənsə bunları görmək istəmir. Necə olur ki, Fransa Afrikada və digər yerlərdə neokolonializm siyasəti həyata keçirir, amma AŞPA Fransaya "gözün üstə qaşın var" deməyi lüzum görmür. Bu gün Fransa Avropanın özündə Korsikada milli azadlıq hərəkatını boğur, onun üzvlərini təqib edir, onları həbsə atır. Lakin AŞPA Korsikada insan hüquqlarının pozulmasına görə Fransaya irad belə bildirmir.

Deputat qeyd edib ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə, beynəlxalq hüquq normalarına əsaslanaraq işğalda olan torpaqlarını azad edib. Bununla Azərbaycan həm də dünyada beynəlxalq hüququn və ədalətin bərpa olunmasına yardımçı olub. Lakin AŞPA Fransa kimi erməni təəssübkeşlərinin məkrli siyasətinə dəstək verərək Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirir.

Azərbaycanın 2001-ci ildə AŞPA-ya üzv olarkən bu təşkilatın ədalətin yanında olacağını düşündüyünü deyən Kamilə Əliyevanın sözlərinə görə, ötən illər ərzində AŞPA ona bəslənən ümidləri nəinki doğrultmayıb, həm də daim ölkəmizə qarşı qərəzli olub: "Ona görə Azərbaycana qarşı qərəzli olan, onun səsini dondurmaq istəyən bir təşkilatın layiqli cavabı verilməli idi. Bu baxımdan nümayəndə heyətimizin bu qurumla əməkdaşlığı dayandırması vaxtında və yerində verilən doğru qərardır. Bu AŞPA-ya tərs şillə oldu. Azərbaycan öz yolu, qətiyyətli siyasəti olan dövlətdir və beynəlxalq aləmdə heç bir nüfuzu, çəkisi olmayan AŞPA ilə əməkdaşlığa da ehtiyacımız yoxdur".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Fransanın əməlləri fitnəkarlıqdır

Fransa prezidenti Emmanuel Makronun silahlı qüvvələrin şəxsi heyəti qarşısında çıxışı zamanı səsləndirdiyi bəyanatlar bu ölkənin anti-Azərbaycan mövqeyini bir daha ortaya qoyur. Vətən müharibəsində, eləcə də sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirləri nəticəsində qazandığımız qələbələri həzm edə bilməyən Fransanın Azərbaycana düşmənçiliyi daha da artıb. Cənubi Qafqazda yer tutmaqdan ötrü hər cür fitnəkarlığa əl atan Paris bu məqsədini reallaşdırmaq üçün Ermənistandan sui-istifadə edir.



Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Fransanın Azərbaycana bəslədiyi düşmən mövqeyə şahidlik edirik. Bu ölkə davamlı olaraq əleyhimizə addımlar atır, bizə şər-böhtan yağdırır. Ölkəmizi hədəf alan belə çirkin davranışlar Vətən müharibəsindən sonra daha intensiv xarakter alıb. Artıq münaqişə bitib və Azərbaycan öz torpaqlarını beynəlxalq hüquqa əsasən azad edib.

Deputatın sözlərinə görə, Fransa bu reallığı nəzərə alaraq bizimlə razılaşmalı, yeni addımlar atmalı idi: "Amma bu gün bütün istiqamətlərdə, həm özünün qanunverici orqanlarında, həm Avropa Şurası çərçivəsində və digər siyasi müstəvilərdə bunun əksini edir. Beləliklə, Fransanın dövlətimizə qarşı təxribatları davam etdirdiyini görürük. Fransa həm Ermənistana silah satır, həm də mülki missiya adında öz keçmiş zabitlərini və təhlükəsizlik işçilərini bölgəyə göndərir, həmçinin davamlı olaraq Azərbaycan əleyhinə müxtəlif bəyanatlar verir. Əgər Fransa bu kimi addımları ilə bizim mövqeyimizə təsir göstərə biləcəyini düşünürsə, tamamilə yanılır. Fransa bu cəhdləri ilə regionda vəziyyəti gərginləşdirməyə nail ola, eyni zamanda Ermənistanın Azərbaycan üzərində hansısa bir uğurunu təmin edə bilməz. Bu, tamamilə absurddur".



Ceyhun Məmmədov vurğulayıb ki, heç bir ölkə Azərbaycanın haqlı mövqeyinə təsir göstərə bilməz: "Azərbaycan öz siyasətini beynəlxalq hüquqa əsasən qətiyyətlə davam etdirir. Yaxşı olardı ki, Fransa da öz problemlərinin həllinə fokuslansın və bölgədəki vəziyyəti gərginləşdirmək cəhdlərindən çəkinsin. İstənilən halda isə, Azərbaycan həm Ermənistanın, həm də Fransanın bütün təxribatlarının qarşısını qətiyyətlə alır və bu ölkələrin hansısa bir üstünlüyə nail olmasına imkan vermir. Biz bununla bağlı öz mövqeyimizi dəfələrlə bildirmişik".

Deputat yekunda onu da deyib ki, Fransanın cəhdlərinin və müdaxilələrinin heç bir effekti olmayacaq. Azərbaycan qarşıya qoyduğu bütün məqsəd və hədəflərə mərhələli şəkildə nail olur. Çünki ölkəmiz hər baxımdan, həm də beynəlxalq hüquq nöqteyi-nəzərindən haqlıdır.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Qərbi Azərbaycan İcması: "Avropa İttifaqının "ermənidən çox erməni olmaq" siyasəti istehza doğurur"

Avropa İttifaqının 2024-cü ildə BMT-də prioritetləri ilə bağlı qəbul etdiyi sənəddə "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" ifadəsinin yer alması, Qarabağ ermənilərinin qayıdışı məsələsinin qabardılması, qərbi azərbaycanlıların isə öz dədə-baba yurdlarına qayıdış hüququna toxunulmaması bir daha Avropa İttifaqının ikili standartların əsiri olmasını, məsələlərə etnik və dini simpatiya prizmasından yanaşmasını nümayiş etdirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

Qeyd olunub ki, "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin edilməsi" narrativi artıq heç Ermənistanın özü tərəfindən belə səsləndirilmir və bu mənada, Azərbaycan-Ermənistan məsələlərinə Fransanın gözü ilə baxan Avropa İttifaqının "ermənidən çox erməni olmaq" siyasəti istehza doğurur.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Səməd SEYİDOV: "Avropa Şurası daxilində danışıq aparmaq, dialoq qurmaq, mövcud vəziyyəti izah etmək mümkün deyil"



Bəzi avropalı parlamentarilər bu gün Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini sual altına alaraq nümayəndə heyətimizə qarşı ağlasığmaz ittihamlarla çıxış ediblər. Bütün bunlar düşünülmüş, planlaşdırılmış və Azərbaycana qarşı təşkil olunmuş kampaniyanın tərkib hissəsidir.

Bunu nəzərə alaraq Azərbaycan nümayəndə heyəti AŞPA-da geniş, ətraflı bəyanat yaydı. Bəyanatda konkret olaraq vurğulamışıq ki, bu dözülməz şəraitdə, Azərbaycana, azərbaycanlılara qarşı əsassız ittihamlar səsləndirmək şəraitində işləmək mümkün deyil.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

S.Seyidov bildirib ki, dialoq, qarşılıqlı hörmət əsasında işləməsi tələb olunan AŞPA, əslində, bütün bu dəyərlərdən çox uzaqdır. AŞPA-da bəzi avropalı parlamentarilər azərbaycançılığa, türkçülüyə, islama, əməkdaşlığa, qarşılıqlı hörmətə qarşı çıxaraq, növbədənkənar prezident seçkilərinə müdaxilə edib ölkəmizdə demokratik şəkildə fəaliyyət göstərən institutlara kölgə salmaq, bununla da Azərbaycana zərbə vurmaq istəyirdilər.

"İyirmi il ərzində bu təşkilat Ermənistana qarşı heç bir sanksiya tətbiq etmədiyi, yüz minlərlə qaçqın və köçkün azərbaycanlıya hər hansı mesaj göndərmədiyi, onların problemləri ilə məşğul olmadığı və hətta nümayəndə heyətimizə bu problemlərlə məşğul olmağa qadağa qoyduğu halda, Azərbaycan öz torpaqlarını azad edəndən, ərazi bütövlüyünü və suverenliyini, sərhədlərini tam şəkildə bərpa edəndən sonra buradakı parlamentarilər ölkəmizə qarşı cidd-cəhdlə belə bir kampaniya başlamışdılar. Avropa Şurası, eləcə də digər beynəlxalq təşkilatlar Azərbaycanla şantaj dili ilə danışa bilməz. Heç kim ölkəmizi təhdidlərlə qorxuda bilməz. Azərbaycan ərazi bütövlüyünü bərpa etmiş qalib dövlətdir. Ona görə də belə cəhdlərlə Avropa Şurası öz Parlament Assambleyasının dəyərlərinə, mövcudluğuna, təsir imkanlarına, Avropada və dünyadakı nüfuzuna ciddi zərbə vurdu. Belə bir təşkilatın daxilində danışıq aparmaq, dialoq qurmaq, mövcud vəziyyəti izah etmək mümkün deyil.

Ona görə də bu gün nümayəndə heyətimizin yekdil qərarı ilə AŞPA-da fəaliyyətimizi dayandırırıq. Hesab edirik ki, bu, ölkəmizlə başqa dillə danışmaq istəyən ölkələrə, dairələrə ciddi siqnaldır. Azərbaycan qalib ölkədir, sözü haqdır. Azərbaycanın sözü eşidiləcək, dinləniləcək və nəzərə alınacaq", - deyə S.Seyidov vurğulayıb.

O qeyd edib ki, nümayəndə heyətimiz AŞPA-ya yenidən qayıtmaq məsələsi barədə düşünəcək. Bu təşkilatda mövcud ab-hava dəyişməsə, insanlığa qarşı ritorika gündəlikdən çıxarılmasa, təşkilat ikili standartlara, islamofob, türkofob, azərbaycanofob münasibətlərə son qoymasa, bu, mümkün olmayacaq.

"Normal münasibətin şahidi olmasaq, qalib Azərbaycana layiqli münasibət göstərilməsə, nümayəndə heyətimiz öz mövqeyində qalacaq", - deyə S.Seyidov qeyd edib.

# AŞPA ilə əlaqələr kəsildi

## Bu, Azərbaycanla başqa dillə danışmaq istəyən bütün dairələrə ciddi mesajdır

Azərbaycan AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırıb. Ölkəmizin bu təşkilatdakı nümayəndə heyətinin dünən yaydığı bəyanatda qeyd edilir ki, qurumda mövcud olan dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, dialoq, qarşılıqlı hörmət əsasında işləməsi tələb olunan AŞPA, əslində, bütün bu dəyərlərdən çox uzaqdır: "Hesab edirik ki, bu, ölkəmizlə başqa dillə danışmaq istəyən ölkələrə, dairələrə ciddi siqnaldır. Azərbaycan qalib ölkədir, sözü haqdır. Azərbaycanın sözü eşidiləcək, dinləniləcək və nəzərə alınacaq".

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, yanvarın 22-də Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının açılışı günü Almaniya nümayəndə heyətindən deputat Frank Şvabenin təklifi ilə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsi heç bir hüquqi əsasa söykənməyən qərəz və ikili standartdan yaranan yanlışlıqdır. Görünən odur ki, Fransa və Avropadakı erməni lobbisi AŞPA-nı anti-Azərbaycan platformasına, Frank Şvabenin timsalında isə Almaniyanı muzdlu icraçıya çevirə bilib".

Deputat bildirib ki, insan hüquqları və əsas azadlıqlarının dəstəklənməsi, siyasi ənənələrin, ideallların, azadlığın və hüququn aliliyinə sədaqət yolu ilə üzvləri arasında böyük birliyə nail olmaq kimi məqsəd müəyyən etmiş Avropa Şurasının bu gün lobbi məqsədləri naminə kiçilən, Fransa və Almaniya kimi dövlətlərin işğal və separatizmi açıq şəkildə müdafiə edən cılız birliyi formasında təzahür edən reallığını görmək təəssüf doğurur.

### AŞPA özünü orta əsr təfəkkürlü radikal dini klub kimi aparır

Deputatın sözlərinə görə, Azərbaycan 2001-ci ildə Avropa Şurasının Nizamnaməsinin preambulasında ifadə olunan "Ədalətə və beynəlxalq əməkdaşlığa əsaslanmış sülhün möhkəmləndirilməsinin insan cəmiyyətinin və sivilizasiyanın qorunması üçün həyati əhəmiyyət daşıdığına inanaraq", həmçinin İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın preambulasında ifadə olunan "10 dekabr 1948-ci il İnsan hüquqları haqqında Ümumi Bəyannamənin məqsədinin, bəyan etdiyi hüquqların hamılıqla və səmərəli tanınmasının və həyata keçirilməsinin təmin edilməli olduğunu nəzərə alaraq" təsisata qoşulub. Hətta 2001-ci il yanvarın 25-də Strasburqda Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə çıxış edən Ulu Öndər Heydər Əliyev "Bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına" inamını ifadə etmişdi.

Ötən dövrdə Parlament Assambleyasının Avropa Şurasının Nizamnaməsi və Avropa Konvensiyasına, habelə hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplərə zidd olaraq özünü daha çox erməniпərəst, islamofob, türkofob dairələrin platforması və qeyrilərini qəbul etməyən orta əsr təfəkkürlü radikal dini klub kimi apardığının şahidi olmuşuq: "Xüsusən bəşəri dəyər olan insan haqları və demokratiya kimi meyarlar AŞPA-nın fəaliyyətində ucuz təsir alətinə çevrilib. Avropa Şurası Nizamnaməsinin 3-cü maddəsində qanunun aliliyi və insan hüquqları və əsas azadlıqlarından bütün şəxslərin bəhrələnməsi prinsipindən bəhs etdiyi halda, Azərbaycana münasibətdə bu yanaşma faktiki olaraq işlək olmayıb. Ən azı quruma daxil olduğumuz 2001-ci ildən 2020-ci ilə qədər davam edən işğal faktoru nəticəsində bir milyona yaxın Qarabağ və Şərqi Zəngəzur sakininin təməl haqlarını AŞPA faktiki olaraq görməzdən gəlib. Azərbaycanda 2023-cü ilin sentyabr ayına qədər mövcud olmuş və əsas bəşəri təhlükəsizlik məsələlərinin təməlində dayanan amillərdən biri olan separatizm probleminə dair AŞPA bir dəfə də olsun real mövqe ifadə etməyib. Əksinə, Azərbaycanın hərbi-siyasi yolla, həmçinin beynəlxalq humanitar hüququn prinsiplərini rəhbər tutmaqla işğala, təcavüzə son qoyması Qərbin bir sıra dairələri kimi, AŞPA-da da isterikaya səbəb olub".



Bəhruz Məhərrəmov bildirib ki, bu gün Ermənistanın bu reallıqla barışdığı bir mərhələdə Avropa Şurası ASALA-dan, yaxud terrorçuların siyasi qanadı olan "Daşnaksütyun"dan fərqli davranmayaraq, prosesləri qəbul etmək istəmir. Azərbaycan və Ermənistan arasında 2023-cü il 7 dekabr birgə bəyanatı fonunda xoş niyyət ifadəsi təcrübəsi yarandığı, Bakı və İrəvanın birbaşa təmaslara başladığı, sülh prosesi çərçivəsində müzakirə olunan sənəd layihəsində Qarabağ adlı bir məqamın olmadığı bir situasiyada AŞPA "Qarabağdan erməni sakinlərin zorakılıqla çıxarılması" kimi absurd iddialar irəli sürür. İndiki məqamda Avropa Şurasının bu yanaşması Ermənistanda revanşist kəsimin yenidən ümidləndirilərək dirçəldilməsi ilə Azərbaycan və Hayastan arasında qarşılıqlı etimad mühitinə zərbə vurmaqla regionda sülh və sabitlik üçün açıq təhdiddir.

### Bu təşkilatın "həssaslığ"ı yalnız ucuz və təcavüzkar məqsədlərə xidmət edir

Deputatın fikrincə, əgər AŞPA insan haqlarının ayrılmaz, universal, ali və konsensual xarakter daşıması reallığını qəbul edirsə, sayı hər ötən gün şişirdilən Qarabağ ermənilərinin könüllü köçündə prinsipial olaraq həssasdırsa, 350 mindən artıq qərbi azərbaycanlının öz ata-baba yurduna qayıtmaq hüququnu niyə görməzdən gəlir?

Görünən odur ki, AŞPA-nın "həssaslığ"ı yalnız ucuz və təcavüzkar məqsədlərə xidmət edir. "Yaxud Frank Şvabenin "Parisdə yazılmış" çıxışında Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılması üçün əsas gətirdiyi səbəblərdən digəri - Azərbaycanda "siyasi məhbuslar" olması məsələsinin bu kürsüdən səslənməsi özlüyündə riyakarlıq və saxtakarlıq olmaqla, həm də təhlükəli presedent yaradan ciddi qanunsuzluqdur. Əslində, nə Şvabeni, nə də onun məlum məzmunda çıxışına dəstək verən təlxəklər yığınını Azərbaycanda konkret cinayət əməlinə görə məhkum olunan dələduz, yaxud barəsində cinayət təqibi davam edən təqsirləndirilən şəxs maraqlandırır. Sadəcə bu, AŞPA üçün anti-Azərbaycan fəaliyyətinə növbəti mövzudur.

Bu gün Azərbaycanın özünün prioritetlərinə və milli maraqlarına cavab verməyən hər hansı prosesə qoşulmaması, müstəqil davranması neoimperialist güclərin niyyətləri ilə üst-üstə düşmür. Ölkəmizin Vətən müharibəsindən sonra isə özünü həm də ciddi hərbi-siyasi güc kimi təsdiq etməsi, adətən, münaqişəli vəziyyətlərdən qidalanan Qərb dairələrinin qazanc və hərəkət imkanını məhdudlaşdırıb.

AŞPA-nın ən azı bölgədə insan haqları barədə danışmaq haqqını itirdiyini qeyd edən deputat bildirib ki, təşkilata üzvlük dönəmində Gəncədə, Bərdədə, Tərtərdə körpələr raket zərbələri ilə məhv edilərkən susan AŞPA selektiv qaydada hər hansı bir azərbaycanlının hüququnun müdafiəsi barədə danışa bilməz. "İndi "siyasi məhbus" şousu ilə AŞPA faktiki olaraq Azərbaycan məhkəmələrinin qərarlarını və fəaliyyətini şübhə altına alaraq, hüquq-mühafizə sistemi üzərində təzyiq mühiti formalaşdıraraq beynəlxalq hüququn prinsiplərini açıq formada pozur. Amma Fransa muzdlusu olan alman deputat da, ona kürsü verənlər də unutmamalıdırlar ki, özünün müəyyən etdiyi meyarlarla qəbul edilən şərtləri müəyyən edib işlərə selektiv qaydada baxan, qəbul edilməz hesab etdiyi istənilən şikayəti rədd edən, bir sıra hallarda müraciətləri 5-6 il gözlədən, özünün "vacib" hesab etdiyi işlərə dair bir həftəyə qərar çıxaran Avropa Məhkəməsindən fərqli olaraq Azərbaycanda hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilən cinayət prosesini siyasiləşdirmək cəhdləri indidən iflasa məhkumdur", - deyə o əlavə edib.

### Bu ədalətsizlik ciddi nüfuz itkisinə məruz qalan Avropa Şurasının özü üçün zərbədir

Deputat vurğulayıb ki, bütün bunlar AŞPA-nın ssenarisinin, artıq çoxdan hazır olan anti-Azərbaycan qərarının insan hüquqları ilə heç bir bağlılığı olmadığını göstərir.

Azərbaycan ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyətini bəyan edib, o cümlədən AŞPA-ya da bu istiqamətdə əlverişli platforma kimi yanaşıb. Lakin 23 illik üzvlük dövründə Avropa Şurası bəşəri ideallar naminə Azərbaycanın gözləntilərini faktiki olaraq doğrultmayan bir təşkilatdır. Bu mənada, şura rəsmiləri anlamalıdırlar ki, AŞPA-nın çirkin kampaniyasına münasibətdə adekvat davranışlardan və siyasi addımlardan çəkinməyəcəyik. Bu isə ilk növbədə onsuz da ciddi nüfuz itkisinə məruz qalan Avropa Şurasının özü üçün zərbədir. Ölkəmiz Avropa ilə sağlam münasibətlərin dərinləşdirilməsində israrlıdır və bunun üçün isə riyakar mexanizmə çevrilmiş Avropa Şurası Parlament Assambleyasına ehtiyac duymur. Azərbaycan üçün Avropa hansısa qeyri-hüquqi məqsədlər güdən klublar yox, ayrılıqda strateji müttəfiqlik münasibətində olduğu, enerji təhlükəsizliyini birbaşa təmin etdiyi və milli təhlükəsizliyində rol aldığı tərəfdaşları və bundan sonra əməkdaşlığı dərinləşdirmək niyyətində olduğu digər dost dövlətlərdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ombudsman: "Mirzoyanın fikirləri işğal dövründə Azərbaycan ərazilərində basdırılmış minaların dəqiq xəritələrinin mövcud olduğunu təsdiqləyir"

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın mətbuat konfransı zamanı səsləndirdiyi fikirlər işğal dövründə Azərbaycan ərazilərində basdırılmış minaların dəqiq xəritələrinin mövcud olduğunu və insanların qəsdən qətlə yetirilməsi məqsədilə ölkəmizə təqdim edilmədiyini təsdiqləyir.



Bu barədə Azərbaycan Respublikasının insan hüquqlari üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirib.

Ombudsman qeyd edib ki, Ermənistan tərəfindən törədilən mina terroru işğaldan azad edilmiş ərazilərimizdə aparılan tikinti-quruculuq işlərinə mane olur, mülki şəxslərin həyat və sağlamlığını risk altında qoyur, əhalinin öz tarixi yurdlarına təhlükəsiz qayıdışını ləngidir. Birinci Qarabağ müharibəsindən bu günədək Ermənistan silahlı qüvvələrinin torpaqlarımızda basdırdığı minaların partlaması 357 nəfəri uşaq, 38 nəfəri isə qadın olmaqla, ümumilikdə 3400-dən çox vətəndaşımızın minadan zərər çəkməsi ilə nəticələnib. Bununla da beynəlxalq humanitar hüququn norma və prinsipləri Ermənistan tərəfindən kobud şəkildə pozulub.

Dəfələrlə müraciət ünvanlanmasına baxmayaraq, Ermənistan tərəfindən minalanmış ərazilərlə bağlı dəqiq xəritələrin varlığı inkar edilib və ölkəmizə təqdim olunmayıb, bu günədək verilmiş mina xəritələrinin dəqiqlik göstəricisi isə cəmi 25 faiz təşkil edib. Ermənistanın xarici işlər nazirinin son etirafı həmin dövlətin Azərbaycana qarşı müharibə cinayətləri və mina terroru törətdiyini bir daha sübut edir.

# Zəngəzur dəhlizi açılarsa...

## Bu, Azərbaycan-Ermənistan əməkdaşlığı üçün yaxşı başlanğıc ola bilər

"Zəngəzur dəhlizinin açılması həm də Ermənistanın milli dövlət maraqlarına uyğun olar. Ermənistan rəhbərliyi anlamalıdır ki, müharibə başa çatıb, indi sülh və əməkdaşlıq dövrüdür. Azərbaycan sülh istəyir, müharibənin əleyhinədir. İki ölkə mehriban qonşuluq şəraitində yaşamalı və əməkdaşlıq etməlidir. Əgər Ermənistan bu yolu seçməsə, uduzan özü olacaq".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Musa Qasımlı deyib. Deputat bildirib ki, Zəngəzur dəhlizinin açılmasına dair Azərbaycan dövlətinin mövqeyi tam aydın, ədalətli və əməkdaşlıq istiqamətinə əsaslanır: "Azərbaycanın quru yolu ilə Naxçıvana gedən yüklər bu dəhlizdən gömrük rüsumu olmadan, yoxlamalar aparılmadan çatdırılmalıdır. Habelə, Naxçıvandan Zəngəzur dəhlizi vasitəsilə Azərbaycana gələn yüklər gömrük rüsumundan və digər yoxlamalardan azad olunmalıdır. Lakin Ermənistan üzərindən daşınacaq yüklər gömrük rüsumu ödənilməklə və bəlli sərhəd-nəzarət qaydaları yerinə yetirməklə həyata keçirilməlidir".



Deputatın sözlərinə görə, bu dəhlizin açılması Ermənistana da fayda verər. Bununla Ermənistan keçid rolunu oynamaqla gəlirlərini artıra, tranzit ölkə kimi mövqelərini möhkəmləndirə bilər. Eyni zamanda bu dəhlizin işə düşməsi İrəvanı dalandan çıxarar. Bu həm də Azərbaycan-Ermənistan əməkdaşlığı üçün yaxşı başlanğıc ola bilər. Çünki Azərbaycan dövlətinin mövqeyi belədir ki, əgər Zəngəzur dəhlizi açılmazsa, Ermənistanla Azərbaycan arasında heç yerdə sərhədlər açılmayacaq. Deməli, indiki şəraitdə Ermənistan iki yoldan birini seçməlidir - ya dəhliz açılmalı və Ermənistan özü də inkişaf etməli, Cənubi Qafaqaza əməkdaşlıq gəlməlidir, ya da dəhlizdən imtina edərək dalan dövlət olaraq qalmaqda davam etməli, regionda əməkdaşlıq qurulmamalıdır.

Musa Qasımlının fikrincə, ötən illərin təcrübəsi göstərir ki, uzun illər ərazilərinin işğal altında qalmasına, məcburi köçkün və qaçqınlarının olmasına baxmayaraq, Azərbaycan inkişaf edən dövlətdir. Bu gün ərazilərini işğaldan tam azad etmiş, dövlət suverenliyini möhkəmləndirmiş daha güclü Azərbaycan mövcuddur. Ona görə də Ermənistan kiminlə qonşu olduğunu anlamalı və bilməlidir ki, onların xəyal etdikləri şərait regionda heç zaman yaranmayacaq.

Deputat yekunda vurğulayıb ki, Azərbaycanın Zəngəzur dəhlizinin açılması ilə bağlı təklifi Ermənistanın suverenliyini təhdid xarakteri daşımır. İrəvanın öhdəliklərdən boyun qaçırmaq üçün əsassız bəhanələr uydurması nəticə verməyəcək. Beynəlxalq təcrübəyə cavab verən Zəngəzur dəhlizinin açılması təklifi reallaşacağı halda, həm Azərbaycan, həm də Ermənistan iqtisadi dividendlər əldə edəcək. O zaman bu layihənin nə qədər yararlı olduğu bir daha məlum olacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# İranda Azərbaycanın sədrliyi ilə İƏT-in Turizm Komitəsinin toplantısı keçirilib

Azərbaycanın sədrliyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Regional Planlama Şurasının 34-cü iclası çərçivəsində İran İslam Respublikasının Tehran şəhərində təşkil olunan Turizm Komitəsinin toplantısı keçirilib.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycanı agentliyin Aparat rəhbərinin müavini - Beynəlxalq əlaqələr şöbəsinin müdiri Cəlil Məlikov təmsil edib.




Toplantı zamanı təşkilatın 2024-cü il üçün nəzərdə tutulmuş tədbirlər üzrə iş planına əsasən, İƏT regionu ölkələri üçün turizm sahəsi üzrə Məsləhətləşmə Komitəsinin yaradılması, turizm standartlaşdırması üzrə işçi qrupu tərəfindən hazırlanmış İƏT regionunda fəaliyyət göstərən yerləşdirmə müəssisələrinin davamlılığı ilə bağlı ümumi meyarlar, üzv dövlətlər arasında İpək Yolu turizmi istiqamətində əməkdaşlığın genişləndirilməsi məqsədilə işçi qrupun yaradılması müzakirə olunub.

Həmçinin İƏT və UNESCO-nun birgə əməkdaşlığı ilə qədim İpək Yolu abidələrinin və mədəni irsinin qorunması üçün müvafiq tədbirlərin təşkili, eləcə də üzv dövlətlərin mövcud turizm potensialının təşkilat çərçivəsində daha geniş təbliğatının aparılması məqsədilə yeni layihə olan "İƏT-in turizm səfirləri"nin təyin edilməsi məsələləri barədə ətraflı fikir mübadiləsi aparılıb.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## *Məzahir PƏNAHOV:* "Seçkilərə üç gün qalanadək bülletenlər məntəqə seçki komissiyalarına təqdim olunmalıdır"

Seçki bülletenlərinin çapına artıq başlanılıb. Hesab edirik ki, bir həftəyə çap işi başa çatacaq. Lakin paylanma prosesi üçün çap işlərinin başa çatmasını gözləmirik.

AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov yanvarın 24-də jurnalistlərə müsahibəsində deyib.

"İki gündən sonra, artıq burada kifayət qədər bülleten hazır olanda birinci Naxçıvanda, sonra ucqar rayonlarda yerləşən dairələrin komissiyalarını dəvət edirik. Məcəllənin tələbinə uyğun olaraq nümayəndə heyətləri gəlir və bülletenləri rəsmi şəkildə təhvil alıb dairələrə çatdırırlar. Seçki gününə üç gün qalanadək onlar bülletenləri rəsmi şəkildə məntəqə seçki komissiyalarına təqdim etməlidirlər", - deyə MSK sədri əlavə edib.

## "Bu günədək 400-ə yaxın beynəlxalq müşahidəçi qeydiyyatdan keçib"

**Bu günədək 64 minə yaxın müşahidəçi qeydiyyatdan keçib.**




AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov yanvarın 24-də jurnalistlərə müsahibəsində deyib.

MSK sədri qeyd edib ki, onların 400-ə yaxını beynəlxalq müşahidəçilərdir.

"Artıq veb-kameraların sınağına başlamışıq. Hesab edirəm ki, səsvermə gününədək bu prosesi tam başa çatdıracağıq", - deyə M.Pənahov əlavə edib.

## *MSK sədri:* "Bütün məntəqələrdə brayl əlifbası ilə səsvermə imkanı yaradılacaq"

Seçki prosesində xəstələrin və qocaların səs vermələrini təmin etmək üçün mobil səsvermə qutuları təşkil olunacaq. Bu, Seçki Məcəlləsinin tələbinə əsasən həyata keçirilir. Yəni bu bizim komissiyaların vəzifəsidir. Əgər səsvermə günü obyektiv səbəbdən məntəqəyə gələ bilməyən seçicilər varsa, onlar qeydiyyata alınırlar.

AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov yanvarın 24-də jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, mobil qutuların çatdırılması da Məcəllənin tələbinə uyğun olaraq, müəyyən tərəflərin müşayiətilə həyata keçirilir. Eyni zamanda bütün məntəqələrdə brayl əlifbası ilə də səsvermə imkanı yaradacağıq. Həmçinin hərəkət məhdudiyyətli insanlar üçün pandusların quraşdırılmasına başlanılıb. Maksimum dərəcədə çalışmışıq ki, bu qəbildən olan bütün seçicilərimizin hüquqlarını təmin edək.

## Prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb



Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Milli Məclisin mətbəəsində seçki bülletenlərinin çapına başlanılıb.

AZƏRTAC xəbər verir ki, yanvarın 24-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov mətbəəyə gələrək çap prosesinin gedişi və yaradılmış şəraitlə tanış olub.

Komissiya üzvlərinin və media mənsublarının iştirakı ilə keçirilən tədbirdə MSK sədri seçicilərin səsvermə hüquqlarının azad, sərbəst şəkildə reallaşdırılmasında mühüm əhəmiyyət daşıyan seçki bülletenlərinin hazırlanmasında və çapında Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunmasının vacibliyini diqqətə çatdırıb. O, seçki bülletenlərinin qanunvericiliklə müəyyənləşdirilmiş vaxtda və qaydada çap edilməsi, aşağı seçki komissiyalarına çatdırılması ilə bağlı tövsiyələrini də verib. Həmçinin vurğulayıb ki, seçki bülletenlərinin çap prosesi təhlükəsizliyin təmin edilməsi şərti ilə, seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları və media nümayəndələri üçün tamamilə açıq həyata keçirilir.

Seçki bülletenlərinin çap prosesi ilə tanışlıqdan sonra MSK sədrinin jurnalistlər üçün brifinqi keçirilib. Məzahir Pənahov mediaya açıqlamasında seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin Seçki Məcəlləsinə əsasən MSK-nın qərarı ilə müəyyən olunduğunu, prezident seçkiləri ilə əlaqədar 6 milyon 524 min 203 seçki bülleteninin çap edilməsinin nəzərdə tutulduğunu bildirib. Qeyd edib ki, seçki bülletenləri çap olunduqca qanunvericiliyin tələblərinə uyğun qaydada və müddətdə MSK-dan dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından isə məntəqə seçki komissiyalarına veriləcək.

Brifinqdə MSK sədri prezident seçkilərinin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində son hazırlıq işləri barədə də ətraflı məlumat verib, media nümayəndələrinin suallarını cavablandırıb.

## Dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlar keçirilir

Fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının müxtəlif statuslu seçki prosesi iştirakçılarını əhatə edən layihələri ardıcıl və sistemli şəkildə davam edir.




AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyası genişmiqyaslı maarifləndirmə proqramı çərçivəsində yanvarın 24-dən etibarən daha bir layihəyə - dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarlara başlayıb.

Layihənin həyata keçirilməsində başlıca məqsəd dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssislərini Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin (DAİS) yenilənərək daha da təkmilləşdirilən imkanları barədə məlumatlandırmaq, sistemin proqram təminatları ilə birbaşa və praktiki istifadəni təmin etmək, habelə iştirakçıları maraqlandıran məsələləri əyani şəkildə izah etməkdir.

Seminarlarda informasiya texnologiyaları üzrə mütəxəssislər prezident seçkiləri günü seçicilərin fəallığına və səsvermənin nəticələrinə dair protokol məlumatlarının birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülməsi üçün xüsusi proqram təminatından istifadə etməklə, praktiki məşğələlərlə test rejimində işləyəcəklər. Bu həm onların praktiki biliklərinin daha da artırılmasına, peşəkar vərdişlərinin və təcrübələrinin yüksəlməsinə, həm də seçki günü DAİS sistemindən dəqiq, operativ və rahat istifadə olunmasına imkan yaradacaq.

Dairə seçki komissiyalarının informasiya texnologiyaları üzrə mütəxəssisləri üçün seminarların 3 gün davam etməsi və yanvarın 26-da yekunlaşması nəzərdə tutulur.

## Masallıda "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda "dəyirmi masa" təşkil olunub



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə əməkdaşlığı çərçivəsində növbədənkənar prezident seçkiləri ilə əlaqədar "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda maarifləndirmə tədbirləri davam etdirilir.

Ombudsman Aparatının mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə növbəti "dəyirmi masa" Masallı rayonunda keçirilib.

"Dəyirmi masa"da çıxış edən Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı vətəndaşların seçki hüququnun təmini və müdafiəsi istiqamətində təsisat tərəfindən müvafiq işlərin görüldüyünü, MSK ilə birgə Bakı şəhəri və regionlarda birgə silsilə maarifləndirmə tədbirlərinin keçirildiyini bildirib. O, ombudsman təsisatının seçki prosesi zamanı müşahidəçilik təcrübəsi barədə danışıb. Mərkəzi Seçki Komissiyasının üzvü Şaitdin Əliyev bu dövr ərzində görülən işlər, həyata keçirilən tədbirlər barədə müfəssəl məlumat verib. O, ilk dəfə olaraq MSK tərəfindən hazırlanan "Ekspert qrupunun üzvləri üçün yaddaş kitabçası"nın əhəmiyyətindən söz açıb.

MSK-nın əməkdaşı Cavid Zeynalov da görülən tədbirlərə toxunaraq, xüsusilə seçicilər üçün "ASAN növbə" terminallarında "Seçici statusunu yoxla" adlı funksional bölmənin əlavə edildiyini diqqətə çatdırıb. Bildirilib ki, bölmə vasitəsilə vətəndaşlar adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər.

Sonda "dəyirmi masa" iştirakçıları fikir və təcrübələrini bölüşüb, eləcə də onları maraqlandıran suallar cavablandırılıb.

# Füzuliyə köç davam edir

Torpaqlarımız işğaldan azad edildikdən sonra dövlətimizin qarşısında duran prioritet məsələlərdən biri məcburi köçkünlərin yurd həsrətinə son qoymaqdır. Müharibədən dərhal sonra başlanılan və qısa müddət ərzində həyata keçirilən möhtəşəm layihələr nəticəsində bu məqsədə sürətlə nail olunur.






2022-ci il iyulun 19-da Vətən torpaqlarımız 30 illik həsrətdən sonra ilk köç karvanını qəbul etdi. İlk olaraq Ağalı doğma sakinlərinə qovuşdu. Daha sonra Tərtərin Talış kəndi, Laçının Zabux kəndi, Laçın və Füzuli şəhərləri də doğmalarına qucaq açdı. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzura qayıdan vətəndaşlarımızın sayı gündən-günə artır. Elə bir ay, elə bir həftə olmur ki, keçmiş məcburi köçkünlərin əzəli topaqlarına qovuşması xəbərlərini eşidib qürurlanmayaq.

Dünən Füzuli şəhəri daha bir qayıdış karvanını qarşıladı. Yanvarın 24-ü respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşan daha 30 ailə - 125 nəfər əzəli torpaqlarına döndü. Bununla da Füzuli şəhərinin sakinlərinin sayı 1750 nəfərə (470 ailə) çatdı.

Ötən üç ildir ki, işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli şəhərində də genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkə üçün nümunə olan yeni mərhələyə qədəm qoyaraq rayonların sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edən layihələrin icrasına başlanılıb.

Baş plana əsasən, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri yaradılacaq.

Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial parkının, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.



Digər bir önəmli məqam isə yurdlarına qovuşan ailələrin işlə təminatıdır. Füzuli şəhərində artıq 295 nəfərin məşğulluğu təmin olunub. Bununla bağlı müvafiq qurumlar tərəfindən addımlar atılır. Keçmiş məcburi köçkünlərə treninqlər keçirilir, yeni istehsal sahələri, sənaye müəssisələri yaradılır. Bu da işğaldan azad olunmuş ərazilərimizin gələcək inkişafından xəbər verir.

Görülən işlərin miqyasından da söyləmək olar ki, Böyük qayıdış proqramı gözlənildiyindən də tez icra olunacaq.

kİndiyə qədər 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 408 ailə (1555 nəfər) Laçın şəhərinə, 470 ailə (1750 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1276 ailə - 5049 nəfər doğma yurduna qovuşub.

Bu il də Qarabağda və Şərqi Zəngəzurda infrastruktur layihələrinin icrası davam edəcək, yollar, su anbarları, körpülər, məktəblər, xəstəxanaların tikintisi səngiməyəcək. Tezliklə dövlət başçımızın birbaşa nəzarəti ilə yurdlarından didərgin salınan, uzun illərdir Vətən nisgili çəkən, məcburi köçkün həyatı yaşayan vətəndaşlarımızın hamısı əzəli torpaqlarına qovuşacaqlar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Türkiyənin Qafqaz Universitetinin nümayəndə heyəti Gəncəyə səfər edib

Səfər çərçivəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov universitetin rektoru Hüsnü Kapu və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri Nəcibə Nəsibova, Qafqaz Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Engin Kılıç, Baytarlıq fakültəsinin dekanı Mete Cihan, Tibbi mikrobiyoloji bölümünün professoru Özgür Çelebi və Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov iştirak etmişlər.

Niyazi Bayramov qonaqlara Gəncənin tarixi, mədəniyyəti, elm və təhsil sahələri haqqında ətraflı məlumat vermiş, şəhərdə 3 universitet və 2 kollecin fəaliyyət göstəridyini diqqətə çatdırmışdır. Azərbaycan Dövlət Aqrar Universitetinin isə ölkədə kənd təsərrüfatının inkişafında böyük rolu olduğunu qeyd etmişdir.

Hüsnü Kapu səmimi görüş üçün Niyazi Bayramova təşəkkürünü bildirmişdir. O, rəhbərlik etdiyi ali təhsil ocağının fəaliyyət istiqamətləri, tədris olunan ixtisaslar və kadr hazırlığı üzrə aparılan işlərdən danışmış və ADAU ilə əməkdaşlıqda xüsusi maraq kəsb edən sahələrə toxunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# 7 FEVRAL AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Seçkilərin demokratik keçirilməsi üçün bütün tədbirlər görülür

2024-cü il fevral ayının 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri əvvəlki illərdən fərqli olaraq ilk dəfə bütün ölkə ərazisini əhatə edəcək. Səsvermənin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki dairə və məntəqələrində yüksək səviyyədə təşkilati işlər aparılır. Görülən mühüm və zəruri işlər nəticəsində məntəqələr seçkilərə tam hazırlıq vəziyyətinə gətirilib.



Qısa müddət ərzində məntəqələrdə lazımi avadanlıqlar quraşdırılıb və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə, həmçinin elektrik enerjisi ilə təchiz olunub. Məntəqələrə seçki qutuları və lazımi inventar avadanlıqlar paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib. Katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqatın aparılması və təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlər ayrılıb.

Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, səsvermə günü məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların çatdırılması vaxtı, səsvermədə iştirak edən vətəndaşların barmaqlarının mürəkkəblə işarələnməsi, səslərin hesablanması və sairə ilə bağlı informasiyalar verilib.

7 fevral növbədənkənar prezident seçkiləri müstəqillik dövründən bəri ilk dəfə olaraq işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda da keçiriləcək. Doğma ocaqlarına qayıtmış insanlar prezident seçkilərində iştirak etməyin sevincini yaşayacaqlar. İşğaldan azad olunmuş ərazilərdə seçki məntəqələri yaradılıb. Bu məntəqələr seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün əlverişli avadanlıq və texniki vasitələrlə təmin olunub. Vətəndaşların seçki günü rahat səs vermələri üçün hər cür şərait yaradılıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadənin sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə seçki məntəqələri üçün yüksək səviyyədə binalar ayrılıb: "Hər bir seçki məntəqəsi lazımi kommunikasiya ilə təmin olunub. Seçki məntəqələrinin yerləşdiyi otaqların təchizatı başa çatdırılıb. Məntəqələrə elektrik enerjisinin fasiləsiz verilməsi nəzarət altındadır. Mərkəzi Seçki Komissiyası olaraq, biz də seçki məntəqələrini lazımi təchizatla təmin etmişik. Seçki məntəqələri seçki günü istifadə olunacaq ultrabənövşəyi lampalar, səsvermə kabinələri, şəffaf seçki qutuları, seçici siyahıları və digər zəruri ləvazimatlarla təchiz olunub".

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Mərkəzi Seçki Komissiyasının nümayəndələri seçkilərə hazırlığın vəziyyətini öyrənmək üçün işğaldan azad olunmuş Ağdərə, Kəlbəcər, Laçın, Şuşa, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Xankəndi ərazisində yaradılmış seçki məntəqələrinə baxış keçiriblər. Seçkiyə hazırlığın vəziyyəti məntəqə seçki komissiyalarının sədrləri və üzvləri ilə birgə müzakirə edilib.

Verilən məlumatlara görə, işğaldan azad olunmuş ərazilərdə 26 seçki məntəqəsi təşkil edilib. Təşkil olunmuş seçki məntəqələrində 22 minə yaxın seçici qeydə alınıb. Bu seçicilərin 3700 nəfəri həmin ərazilərə daimi yaşamaq üçün doğma ocaqlarına qayıdanlardır. 18 min nəfərdən çoxu isə tikinti-quruculuq işlərində çalışan vətəndaşlardır.

7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərində ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan Azərbaycan vətəndaşlarının seçki hüququnun təmin edilməsi məqsədilə də müvafiq tədbirlər görülmüşdür. Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən ölkə hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətlərdə olan 18 yaşına çatmış vətəndaşlarımızdan ibarət seçici siyahıları Mərkəzi Seçki Komissiyasına təqdim olunub. Təqdim edilmiş bu məlumatlar əsasında seçkilərin ölkə hüdudlarından kənarda təşkili məqsədilə ümumilikdə 37 ölkədə 49 seçki məntəqəsi yaradılıb.

Seçki Məcəlləsinə əsasən, konsul qeydiyyatında olan seçicilərin sayı 50-dən artıq olan diplomatik nümayəndəlik və konsulluqlarda səsvermə həyata keçiriləcək. Ölkələrin yerli vaxtına uyğun olaraq saat 08:00-19:00-da Azərbaycanın seçki məntəqələri yaradılmış diplomatik missiyalarında keçiriləcək növbədənkənar prezident seçkiləri ölkəmizin Çin Xalq Respublikasındakı səfirliyində başlayacaq, ABŞ-nin Los Anceles şəhərindəki Baş konsulluğunda tamamlanacaq.

Faktlardan, məlumatlardan göründüyü kimi, artıq seçki məntəqələri seçiciləri qəbul etməyə tam hazır vəziyyətdədir. Azərbaycan vətəndaşlarının rahat səs vermələri üçün dairə və məntəqələrdə hərtərəfli şərait yaradılıb. Seçkilərin azad, demokratik və şəffaf şəkildə keçirilməsi təmin olunub. Bir qalır vətəndaşların seçkilərdə fəal iştirakı. Əminliklə demək olar ki, seçicilər fevral ayının 7-də hərtərəfli şərait yaradılmış məntəqələrə gələrək vətəndaş mövqeyini ifadə edəcək və ən yaxşı namizədə səs verəcəklər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Qubadlının ilk dəfə səs verəcək gənci deyir ki...

### "Yaşımla bağlı Vətən savaşında iştirak edə bilmədiyimə görə əvəzini seçkidə çıxacağam - Zəfərin davamına səs verəcəyəm"



1993-cü ildə Qubadlının işğalından sonra rayon sakinləri ölkənin müxtəlif regionlarında, o cümlədən Sumqayıtda məskunlaşıblar. İndi isə qubadlılılar yenidən köç ovqatındadırlar. Amma bu ovqat tam fərqlidir - yurda dönüşdən doğan sevinc ovqatıdır.

Hələlik isə 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsinin 36 saylı seçki məntəqəsi Sumqayıtın İnşaatçılar qəsəbəsində yerləşən İşıqlı kənd tam orta məktəbin binasında təşkil edilib. Məntəqənin sədri Fərhad Yusifov bildirdi ki, rayonun bir neçə kəndini əhatə edən məntəqədə 1180 seçici qeydə alınıb. Seçkilərə start veriləndən bəri məntəqədə aparılan işlər qaydalar çərçivəsində görülüb. Məntəqənin katibləri Şəkər Quliyeva, Vəfa Behbudova, üzvləri Sabit Bağırov, Əliyar Məmmədov və Səməd Qasımov seçki siyahılarının hazırlanması, səsvermə kabinələrinin quraşdırılması işlərinə nəzarət edirlər.

Məntəqə üzrə ilk dəfə səsverənlər hələlik 4 nəfərdir. F.Yusifov dedi ki, əvvəlki seçkilərdən fərqli olaraq ilk dəfə səs verənlərin sayı azdır, çünki gənclərin çoxu həqiqi hərbi xidmətdədir.

Nihad Qənbərov ilk dəfə səs verəcək. Onunla məntəqənin girişində görüşdük. Bildirdi ki, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ölkəmiz erməni separatçılarından təmizlənib, ərazi bütövlüyümüz bərpa olunub: "Təəssüf edirik ki, bir gənc olaraq mən və dostlarıma döyüşlərdə iştirak etmək nəsib olmadı, yaşımız imkan vermədi. Amma əvəzini seçkidə çıxıb Zəfərin davamına səs verəcəyik".

Fərhad Yusifov dedi ki, gənclərimizin belə mövqe sərgiləmələri alqışlanmalıdır. Onlar seçkinin məsuliyyətini dərk edir və bu demokratik prosesdən kənarda qalmaq istəmirlər.

Sonda onu da bildirək ki, məntəqə texniki avadanlıqlarla tam təmin edilib - telefonlaşdırılıb, generator quraşdırılıb, seçki günü müxtəlif istiqamətlərə getmək üçün ayrıca maşın ayrılıb və digər işlər görülüb.

Məntəqə sədri dedi ki, qubadlılıların növbədənkənar prezident seçkilərində fəal iştirak edəcəklərinə və ölkəmizin daha işıqlı gələcəyinə səs verəcəklərinə şübhə etmir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Lənkəranda prezident seçkilərinə hazırlıq yekunlaşmaq üzrədir

Ölkəmizdə 7 fevral növbədənkənar prezident seçkilərinə hazırlıq yekunlaşmaq üzrədir. İctimaiyyət arasında canlanma getdikcə artır və hər kəs Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra ilk prezident seçkilərinin keçiriləcəyi günü səbirsizliklə gözləyir.



Lənkəranda da seçkilərə hazırlıq prosesinin məsul dövrüdür. 78 saylı Lənkəran kənd Seçki Dairəsi rayonun Girdəni kəndi ərazisində yerləşir. Dairə Seçki Komissiyasının sədri Əlövsət Rufiyevdən öyrəndik ki, Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində yanvarın 17-dən başlayaraq dairədə məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər keçirilir. Hər bir iştirakçı Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və digər zəruri metodiki vəsaitlər, əyani materiallarla təmin olunub.

Təlimlər zamanı məntəqə seçki komissiyalarının üzvləri səsvermə prosesi, seçki günü prosedurları, səslərin sayılması, seçki məntəqələrinin səsverməyə hazırlanması və digər məsələlər barədə məlumatlandırılıblar. Treninqlərdə həmçinin ATƏT-in müşahidə missiyasının üzvləri Hans Kristen Knaversuld və Andrey Ostvald da iştirak ediblər.

DSK sədrinin sözlərinə görə, dəqiqləşdirilmiş son seçici siyahılarına əsasən, seçicilərin ümumi sayı 48 min 651 nəfərdir. Onlardan 2718 nəfəri bu seçkilərdə ilk dəfə səs verəcək.

Dairə üzrə bütün seçki məntəqələrində səsvermənin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradıldığını söyləyən Ə.Rufiyev səsvermənin gedişini izləmək üçün 53 seçki məntəqəsinin 5-də veb-kameraların quraşdırıldığını, məntəqələrin lazımi avadanlıqlarla, rabitə və digər texniki vasitələrlə, təşviqat plakatları, seçkilərlə bağlı təlimatlarla təmin edildiyi bildirdi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Seçkilər yaxınlaşdıqca dairə və məntəqələrin işi artır

Fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkiləri yaxınlaşdıqca dairə və məntəqələrdə işlər daha da artır. Seçkilərin şəffaf və demokratik keçməsi, eləcə də seçicilərin məntəqələrə gələrək sərbəst şəkildə istədikləri namizədə səs vermələri üçün son hazırlıq işləri sürətlənir.

Müstəqillik tariximizdə bütün ölkə ərazisində ilk dəfə keçiriləcək bu siyasi kampaniyaya 104 saylı Gədəbəy Seçki Dairəsində də geniş hazırlıq işləri aparılır. DSK-nın sədri Xaliq Xudaverdiyevlə söhbət zamanı aydın oldu ki, rayon sakinləri bu seçkilərdə də yüksək fəallıq nümayiş etdirəcəklər. Son dəqiqləşdirməyə əsasən, dairə üzrə 53 seçki məntəqəsində 47 min 791 nəfər seçici qeydə alınıb. Seçkilərin şəffaf və aşkarlıq şəraitində keçməsi üçün 9 məntəqədə veb-kamera, məntəqələrin bir neçəsində isə əlil seçicilər üçün panduslar quraşdırılmışdır.

Öyrəndik ki, məntəqə sədrləri və üzvləri maarifləndirici treninqlərdə iştirak etmişlər. Treninqlərdə seçkiqabağı təşviqatın aparılmasına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması, metodiki və əyani vasitələrdən istifadə etməklə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, eləcə də protokolların doldurulması və digər məsələlərlə bağlı məntəqə üzvlərinə məlumat verilmişdir.

DSK-da prezident seçkilərinə hazırlıq işləri MSK-nın təqvim planına uyğun aparılır. Daşınan və daşınmayan seçki qutuları, həmçinin onların möhürləri gətirilmiş, bütün seçki məntəqələri telefonlaşdırılmış, internet şəbəkəsi, elektrik generatorları ilə təmin edilmişdir. Həmçinin son seçkilərdən sonra seçici siyahısında dəqiqləşdirmə aparılmış, dünyasını dəyişmiş, eləcə də başqa yerə köçmüş seçicilər müəyyənləşdirilərək siyahıdan çıxarılmışdır. Üzürlü səbəbə görə seçki məntəqələrinə gələ bilməyəcək, eləcə də xəstələr dəqiqləşdirilərək daşınan qutunun seçki günü həmin ünvanlara aparılması üçün məntəqə üzvlərindən ibarət nümayəndələr ayrılmışdır.

Dairəni əhatə edən ərazilərdə yaşı 100-dən artıq olan 5 nəfər qeydə alınmışdır. 104 yaşlı Gədəbəy şəhər sakini Gülüzar Hüseynova, yaşı 100-ü keçmiş Səyyad Hüseynova, Güllü Qəfərova və başqaları həmişə olduğu kimi, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində də iştirak etmək arzusundadırlar.

Sonda onu da qeyd edək ki, seçkiləri izləmək üçün DSK üzrə ümumilikdə 480 yerli müşahidəçi qeydə alınmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## Moldova nümayəndə heyəti Azərbaycanda prezident seçkilərini müşahidə edəcək

Moldova Mərkəzi Seçki Komissiyasının (MSK) müşahidə missiyası fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini izləyəcək.




Bu barədə AZƏRTAC-a Moldova MSK-dan məlumat verilib. Bildirilib ki, 3 nəfərdən ibarət olacaq nümayəndə heyətinə Moldova MSK-nın sədri Anjelika Karaman rəhbərlik edəcək. Nümayəndə heyətinə, həmçinin Mərkəzi Seçki Komissiyasının üzvləri Sergiu Lazar və Natalia Arvat daxildir. Moldova MSK-nın müşahidə missiyası səsvermədən sonra seçkinin nəticələrinə dair hesabat yayacaq.

# Seçkilərdən seçkilərə

## Qədim kəndin yeni dövranı

*Sosial oçerk*

**Kəndimizin hər məhəlləsindən bir roman yazmaq mümkündür. Onun kiçik tarixçəsi Azərbaycanın böyük tarixi ilə heyrətamiz dərəcədə üst-üstə düşən, uzlaşan acı və bənzər hadisələrlə zəngindir. Artıq əsrlərdir ki, kəndimiz Qubanın 9 kilometrliyində, dağın döşündə tövrünü pozmadan, qürurunu sındırmadan illəri, qərinələri qarşılayıb yola salır. O, bir tərəfdən heç bir Azərbaycan kəndinə bənzəməsə də, digər tərəfdən elə bütün kəndlərimizə bənzəyir.**



Bizim Xucbalanın yaşı haradasa təxminən 2 min ilə yaxındır. Bu, fərziyyə deyil, illərlə aparılan dəqiq elmi araşdırmaların, arxeoloji qazıntıların dəqiqləşmiş yekunudur. Deyilənə görə, lap uzaq keçmişdə buradakı yüksəkliklərdə Uc adında bir şəhər olubmuş. Elə Xucbala da bu ucalıqlarda qərar tutan qədim şəhərin qalıqlarından biridir.

Biz uşaq olanda - ötən əsrin 60-cı illərində tarix elmləri doktoru Cabbar Xəlilov uzun illər kəndimizdə arxeoloji qazıntılar aparmış, heç kimə bələd olmayan keçmişin sirlərini üzə çıxarmışdır. Hər yay bu qazıntıları aparmağa Bakıdan arxeoloqlar və hətta BDU-nun tələbələri gələrdilər. O vaxtlar qısa geyinmək dəbdə idi. Şəhər qızları da "mini" geyimləri ilə kəndimizin küçələrini "fəth" etmək istəyirdilər. Kənd qeyzlənmişdi. Böyüklər bizi necə qızışdırdılarsa, bir axşam boy verən gicitkənlərdən iri süpürgələr bağlayıb, cumduq qızların üstünə, vur ki vurasan. Qonaqların haray-qışqırıqları kəndi basdı.

Day ondan sonra bir də Cabbar müəllimin tələbələrindən heç kim qısa ətəkdə kəndə çıxmağa cürət etmədi.

Yumorsuz, zarafatsız ötüşməyən kəndimiz həm də Azərbaycanın zəngin keçmişə malik olan unikal kəndlərindəndir. Azərbaycanın yaşadıqları bütün müsibətlər və faciələr onun da başına eyni dəqiqliklə gəlirdi. Rusiya işğalından tutmuş sürgünə, erməni qırğınlarından İkinci Dünya müharibəsinə kimi...

XIX əsrdə Rusiya ərazilərimizə soxulanda kəndimiz də işğal edildi. Bir qədər sonra kəndimizin ən yaxşı torpaqlarına Rusiyadan malakanlar sürgün edildi. Onlar donuz saxlayıb Qusardakı hərbi hissəyə satırdılar. 50-60 il əvvəl qocalar xatırlayırdılar ki, donuzlar kəndin bağ-bağatına girər, həyət-bacaları murdar edərdilər. Ancaq yerli camaatın aramsız şikayətlərinə Quba qəzasından kimsə məhəl qoymazdı. Bu minvalla illər keçirdi. Bir dəfə isə necə olursa çarın vergiyığan məmurunu bu kənddə vurub öldürürlər. Qətli kimin törətdiyini hamı bilsə də, heç kim onu satmır. Bu səbəbdən qatil tapılmadığı üçün birbaşa imperatorun əmri ilə bütün kəndi Muğanın ilanmələyən çöllərinə sürgün edirlər. Keçən əsrin 60-cı illərində 80 yaşlı nənəm Aybala xatırlayardı ki, adamlar sürgünə razı oldular, amma pristavın vergiyığanını kimin öldürdüyünü sirr kimi saxladılar.

Nənəm mənim üçün dünyanın ən gözəl qadınlarından biri idi. Qocalıqdan əlləri quruyub qaxac olmuşdu. Ən çox sevdiyim nənəmin yanında oturub onun dərisi qurumuş əllərinin üstündəki damarlarla necə aram-aram ürəyinin qanı qovmasını izləmək idi. Nənəmin əllərinə, üzünün damarlarına sanki uzaq keçmişin cod izləri hopmuşdu.

Nənəm danışardı ki, Muğanın ilanmələyən susuz çöllərində bulaq suyuna alışan dağ adamları kəpənək kimi qırılırdılar. Bir ev tikirdilərsə, hər yurd yerinə qəbiristanlıqda 5-10 məzar qazırdılar.

Kəndimizin ağsaqqalları, ağbirçəkləri xatırlayardılar ki, rus çarının oğlu olanda camaat ona məktub yazıb gözaydınlığı verərək rica etdi ki, onları əfv edib kəndlərinə qayıtmağa icazə versin. Məktublarına çar qol çəkir, amma adamlara kəndlərinə 15 kilometrdən yaxına köçməyi qadağan edir.

Sürgündən qayıdanlar kəndin 15 kilometrliyində Aşağıxuc tərəfdə yurd salsalar da, kəndlərinə qatılmaları üçün ruslardan əl çəkmirlər. İmkan düşən kimi pul yığıb evləri satın alırdılar. Ruslara deyirdilər ki, yüz il qalsa da sizə xeyir-dua verməyəcəyik, bu kəndi lənətlənmişik.

Birinci Dünya müharibəsi başlayanda rusların bir qismi səfərbərliyə alındı. Qalanları da tədricən başqa bir malakan kəndinə köçüb getdilər. Kəndimizin mərkəzində o vaxt rusların tikdiyi kilsə indi də qalır. Allahın evidir deyə heç kim onun bir çöpünə toxunmağı ağlına belə gətirməyib.

Azərbaycanda kənd yolları əsasən əyri-üyrü, dolanbacdır. Amma Xucbalanın küçələri çox geniş və düzdür. Rusların bir əsr əvvəl saldığı geniş küçələr bu gün də olduğu kimi qalır. Kənd iki dəfə böyüsə də, görkəmini, demək olar, zərrə qədər dəyişməyib. Kəndin mərkəzindən keçən asfalt yol da əvvəllər olduğu kimi, "Elçi yolu" adlanır. Xucbalanın dörd tərəfi indi yenə də bağlarla əhatə olunub.

Kəndimizlə Digah arasında "Qanlı dərə" deyilən yer isə erməni-türk müharibəsinin yadigarıdır. Orada azərbaycanlılarla ləzgilər birləşib ermənilərə qarşı döyüşüblər, qan su yerinə axıb.

Sonralar sovet hakimiyyəti quruldu, kəndimizdə sovxoz yaradıldı. "Sovxoz" deyiləni biz belə sayardıq ki, sanki dədəmizin, babamızın halal malıdır. Amma sovxoz bağında təkcə bizim 5-10 alma ağacımız var idi. Kimsə onları dərib apara bilməzdi. Qoyun-quzunu da imkan düşən kimi vururduq sovxoz bağına ki, mal-qara tox olsun, cəmdəyinə ət yığsın.

Kəndimizin Qonaq dayı adlı briqadiri vardı. Bağa mal-qaranı vuranda qeyzlənərdi, amma atamla dost olduğundan dərinə də getməzdi. Uzağı qışqırardı: "Ayə!!! Gəlin xeyratınızı çıxarın bağdan! Viran qoyduz dövlətin mülkünü". Zəhmli səsi olsa da, mərhəmətli idi, zarafatı başa düşürdü. Deyirdim ki, vallah, Qonaq dayı, bizim qoyunlar budaqları yemir, elə çərgələrin arasındakı alağı gəmirirlər, vəssalam. Anındaca cavabını alardım. "Adə, köpəkoğlu, deyirsən ki, mənim başım xarabdır? Mən bağları alaq etmək üçün niyə 20-30 fəhlə saxlayıram, niyə camaata maaş verirəm ki? Elə gəlib dədənin qoyunlarını vuraram cərgə arası alağa... Pulum da cibimdə qalar".

Bir sözlə, sovxoz çox qəribə bir qurum idi. Kimsə kimsədən inciməzdi. Hərə evinə dartıb aparmağa nə isə tapırdı. Yəni sovxozu elə dədəmizin malı sayırdıq. Kim haradan tuturdusa, oradan da qapırdı. Şah oğurluqların zamanı isə payızda gələrdi. Hamı doluşardı meyvə bağlarına, gecə-gündüz daşıyıb aparardılar evlərinə. Heç kimin ağlına gəlməzdi ki, oğurluq yaxşı iş deyil, hamımız halal sayırdıq, elə bilirdik sovxoz bizimdir.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra torpaqlar özəlləşdirildi və insanlar mülk və əmlak sahibinə çevrildilər. Amma əkib-becərməkdən yadırğamışdılar. Meyvə ağacları da qocalıb əldən düşmüşdü. Kim diribaş idi özünü oda-közə vurub bağ salırdı. Fərsizlərsə torpaqlarını su qiymətinə satırdılar. İndi tamam fərqlidir, hamı mülk sahibi, mülkədardır. Kimin hünəri nədir ki, kiminsə bağına girib oğurluq etsin. Yeddi arxa dönəninə od vurarlar!

Kəndimizin ətrafında hektarlarla yeni bağlar salınıb. Cavanlarımız becərməyi də öyrəniblər, qulluq etməyi də. Hamı bilir ki, ağac əkib bağ salmaq övlad böyütmək kimi çətin işdir. 1990-cı illərdən üzü bəri kəndimizdə aqrar sektorun siması dəyişib. Kənd camaatı əlinin qabarına güvənir. Bir hektar bağı olan da var, 10-20 hektar da... Kəndimizi yeni intensiv meyvə bağları üzük qaşı kimi mühasirəyə alıb. Day oğurluqla baş girləyən yoxdur. Hamı əziyyət çəkir, alın təri ilə məhsul yetişdirir. Elə bağ var 10 min manata başa gəlir, elə bağlar da var 20-30 min manatdan çox xərc aparır.

Özəlləşmədən sonra insanlar torpağa daha dərindən bağlanıblar. Hamı əldən-ayaqdan gedir ki, ruzisi bol olsun. Bağların bərəkəti artdıqca kəndin siması da dəyişir. Demək olar ki, hamı ikimərtəbəli ev tikir. Vaxt vardı, kənddə hamamın nə olduğunu bilən yox idi. Suyu qızdırar, bağda tiyan qoyub çimərdilər. İndi isə hamı evi elə tikir ki, içində hamamı da var, sanitar qovşağı da. 30 il əvvəl bibim Bakıda bizə gələndə dəli oldu ki, siz adam deyilsiz, evin içində tualetmi olar. Zəmanə dəyişib, indi bibimin kənddəki evinin hər iki mərtəbəsində hamam, tualet var.

Kəndimizin qocaları da, cavanları da öyünüləsi adamlardır. 50-yə yaxın gənc sonuncu Qarabaş döyüşündə cəngavər kimi döyüşüb. Ölümün üstünə qəhrəman kimi şığıyıblar. Onlar başımızın tacıdırlar. Qocaların da öz yeri var. Bayram kişi vardı. İşi-peşəsi çölləri gəzmək, kim xəstələnərsə ona dərman hazırlamaq idi. Kimini porsuqla müalicə edirdi, kimini quşlarla, kimini də bitkilərlə. Amma heç vaxt heç kimdən pul istəməzdi, nə versəydilər ona da qane olurdu. Kəndin mamaçası isə Sayad xala idi. 50 ildən yuxarı əlində nə bir uşaq öldü, nə də ki bir qadın.

İndi kəndimiz uzaqdan yeni qəsəbəyə oxşayır. Ümumi mənzərəsi də gözəldir. Kəndarası yollara daş tökülüb, mərkəzi yola isə çoxdan asfalt çəkilib. Kəndimizdə 60-cı illərdə o dövr üçün müasir məktəb tikilmişdi. Onu da söküb bu yaxınlarda yerində təzəsini inşa ediblər. Xucbalada oxuyanlar həmişə çox olub. Bu gün də kəndimizdən Azərbaycanın və xarici ölkələrin ali məktəblərində təhsil alanlar var.

Bizi məktəbə aparanda valideynlərimiz müəllimə deyirdilər ki, əti sənin, sümüyü mənim. Bu isə o demək idi ki, oxumasan, mütləq kötəklənəcəksən. İndi də hamı çalışır ki, uşaqlarına savad versin. Bilirlər ki, hətta yaxşı bağban olmaq istəyənə belə, bilik lazımdır. Bir sözlə, ölkəmiz güclənib inkişaf etdikcə kəndimiz də böyüyür, abadlaşır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Bakı bir gözəllik tablosuna bənzəyir

**Bakı insan zəkası ilə təbiətin yaratdığı bir gözəllik harmoniyasıdır... Bu şəhərin ecazkar dəniz panoraması, füsunkar təbiəti bütün zamanlarda səyyahları, turistləri təəccübləndirməyi bacarıb. Bir görəni bir könüldən min könülə özünə valeh edib.**

Qədimliyin və müasirliyin vəhdət şəhəri olan Bakı həm də sevgi və səmimiyyət şəhəridir. Bu şəhərdə insanların üzündən nur, gözündən təbəssüm, ürəyindən hərarət süzülür. Avropa və Şərq memarlığının ən gözəl inciləri sayıla biləcək qədər yaraşıqlı binalarını görən turistlər Bakını möcüzələr adasına bənzədirlər... Paytaxtımızı əvvəllər görüb, sonradan bir də görənlər gündən-günə gözəlləşən bu şəhərdə möcüzə baş verdiyini zənn edirlər. Bu bir həqiqətdir ki, insanların xoş güzəranını, rahatlığını və qayğısız həyat tərzini təmin etmək məqsədilə şəhərin gözəlliyinə gözəllik qatan, yeni memarlıq abidələrinin vaxtaşırı tikilib sakinlərin istifadəsinə verilməsinə artıq bakılılar vərdiş ediblər. Bu gün Bakı yaşıllıqlar adasına bənzəyir desək, mübaliğə olmaz. Bütün bu işlər dövlətin vətəndaşlara olan qayğısı, qəbul olunmuş xüsusi dövlət proqramı ilə planlı surətdə həyata keçirilir. Dövlətimizin Azərbaycanın sosial inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyanın nəticəsi olaraq Bakının dünyanın ən baxımlı, gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır.



Vaxtilə 3,5 kilometr olan tarixi bulvarımızın uzunluğu indi 16 kilometrə çatıb və hər yer abadlaşıb, gözəlləşib. Bu, dünya miqyasında nadir istirahət və gəzinti zonasıdır. Yeni yollar, parklar, xiyabanlar salınır. Bakı bu gün parklar, bağlar şəhəridir.

Hazırda paytaxtın bütün rayonlarında yaşıllaşdırma, abadlıq-quruculuq işləri aparılır. Qeyd etməliyik ki, bu həm də təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gözəl tarixi ənənənin davamıdır. Tarixə nəzər salsaq, görərik ki 1970-ci ilədək Bakı şəhərində cəmi 3 min hektara qədər yaşıllıq sahəsi mövcud olub. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə Bakıda yaşıllıqların sahəsi 17 min hektara qədər artıb. Bu dövrdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunmasına dair 8 qanun qəbul edilib, hökumət səviyyəsində 30-dan artıq qərar verilib.

Son illər paytaxtda və regionlarda yaşıllaşdırma, abadlaşdırma, parksalma işlərinə nəzər salsaq, qarşımızda geniş bir panorama açılar. Suraxanıda, Sabunçuda, Pirallahı, Nizami, Binəqədi, Səbail rayonlarında görülən işlər şəhər mənzərəsini gözəlləşdirərək onun əsrarəngiz görünüşünə yeni rəng qatıb. Bakı və ətraf qəsəbələrdə 70-dən çox yeni mədəniyyət və istirahət parkı salınıb. 100-dən çox park əsaslı təmir olunub. Dənizkənarı Milli Park, Filarmoniya bağı, Fəvvarələr meydanı, Zabitlər parkı, Sahil bağı, Xaqani bağı, Səməd Vurğun bağı, Zorge parkı, "Koala Park" əyləncə mərkəzi, Dədə Qorqud parkı, Qış parkı, Ümummilli Lider Heydər Əliyevin adını daşıyan çoxsaylı parklar, akademik Zərifə Əliyeva adına park, paytaxtın Xətai rayonunda salınan "Gənclik", Səbail rayonundakı "Çəmbərəkənd" parkları, Yasamal rayonu ərazisində salınmış "Yeni Yasamal" parkı ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın estetik görünüşünü daha da artırır.

Artıq insanlar istirahət günlərini qayğısız, şən keçirmək üçün vaxt itirib uzaqlarda təbii mənzərə, gözəl, səfalı yerlər görmək üçün Bakıdan kənarda yerlər axtarmırlar. Elə şəhərin mərkəzində, yaşadıqları evlərin yaxınlığında istirahətlərini təşkil etmək üçün yaradılan şəraitdən məmnunluqla istifadə edirlər.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

## Aqrar sektor zamanla ayaqlaşmağa başlayıb

### Ərazilərimizin işğaldan azad edilməsi bu sahənin imkanlarına əlavə güc qatacaq

İndi dünyada baş verən proseslərə diqqət yetirdikdə ölkələrdə ərzaq təhlükəsizliyinin təminatının başlıca məsələyə çevrildiyi görünür. Son misal: Rusiya-Ukrayna savaşı üzündən dünyada taxıl qıtlığının yaranması hamıya məlumdur. O da məlumdur ki, milyonlarla insan aclıq fəlakətindən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və BMT-nin birgə səyi sayəsində xilas oldu.

Bu baxımdan, Azərbaycanda islahatların geniş icra edildiyi sahələrdən birinin də aqrar sektor olması təsadüfi deyil. Hədəf ölkənin ərzaq təhlükəsizliyini təmin etməkdir. Bu məqsədlə hələ neçə il öncə kənd təsərrüfatında çalışanlar torpaq vergisindən savayı bütün növ vergilərdən azad edilmişlər. Üstəlik, onlara yanacaq, sürtkü yağları və digər sahələr üzrə güzəştlərdən istifadə etmək imkanı yaradılmışdır. Güzəştli kreditlərdən istifadə zamanı da fermerlərə üstünlük verilir.

Hazırda dünyada aqrar sektorda prinsipial məsələ az torpaq sahəsində daha çox məhsul istehsal etməkdir, yəni məhsuldarlığı artırmaqdır. Bunun ən parlaq nümunəsi Niderlanddır. Cəmi 42 min kvadratkilometr ərazisi olan bu ölkə ABŞ-dən sonra dünya bazarına ən çox aqrar məhsulları ixrac edir.

Bəs Niderland möcüzəsinin sirri nədir? Əslində, burada heç bir möcüzə və ya sirr yoxdur, sadəcə olaraq, düzgün yol seçilib. Kiçik şimal ölkəsi aqrar sektoru inkişaf etdirmək üçün bu sahəyə yüksək maliyyə dəstəyi göstərir. Baxmayaraq ki, hazırda Niderland fermerinin maliyyə durumu yaxşıdır, yenə də dövlət ixracı təşviq etmək üçün maliyyə dəstəyini davam etdirir. İkincisi, bu ölkədə aqrar elmin inkişafına xüsusi diqqət yetirilir. Bu sektorda çalışan fermerin kənd təsərrüfatı üzrə ali təhsili yoxdursa və ya xüsusi kurs qurtarmayıbsa, dövlət ona maliyyə dəstəyi göstərmir. Yəni çörəyi çörəkçiyə verir. Üçüncüsü, Niderlandın aqrar sektorunda müasir kənd təsərrüfatı texnikası və texnologiyasından istifadə olunur. Nəticə isə göz önündədir. İş o yerə çatıb ki, bir çox Avropa ölkələrinin fermerləri dövlətlərindən Niderland məhsullarının idxalına qadağalar qoyulmasını tələb edirlər.

Ölkəmizdə də son dövrlər yüksək texnika və texnologiyalardan istifadəyə üstünlük verilir. "Aqroservis" ASC-nin vasitəsilə müasir texnikalar alınaraq fermerlərə onlardan istifadə etmək imkanı yaradılır. Həmçinin müasir texnika və texnologiyalardan yararlanmaq istəyən fermerlərə dövlət tərəfindən əlavə güzəştlər edilir. Məsələn, məlumdur ki, hazırda dünyada suya qənaət edib yüksək məhsul almaq üçün damcı üsulundan geniş şəkildə istifadə olunur. Azərbaycanda bu növ kənd təsərrüfatı avadanlıqları alan fermerlərə güzəştli şərtlərlə dövlət dəstəyi göstərilir. Düzdür, ölkəmiz hələlik bu sahədə ilk addımlarını atır. Amma qarşıdakı illərdə bu növ texnikalar alan fermerlərə daha böyük güzəştlərin ediləcəyi şübhəsizdir. Kənd təsərrüfatında torpaq, su və digər resurslardan səmərəli istifadə etməklə yanaşı, həmçinin idarəetmənin təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiqi, yüksəkixtisaslı kadrların hazırlanması, xarici bazara çıxış da önəmlidir. Azərbaycanda bu işlər də diqqətdən kənarda qalmır. Həm də o unudulmur ki, aqrar sektor məşğulluq baxımından vacib sahədir. Hazırda ölkəmizdə də əhalinin ən çox məşğul olduğu sahə kənd təsərrüfatıdır. Eyni zamanda aqrar sektorda istehsal edilən məhsullar bir çox sənaye sahələrinin inkişafını təmin edir. Götürək toxuculuq və qida sənayesini. Bu sahələrdə kənd təsərrüfatı məhsullarından xammal kimi istifadə edilir.

Son dövrlər ölkəmizdə aqrar elmin inkişafına, beynəlxalq əlaqələrin genişlənməsinə və qabaqcıl təcrübənin öyrənilməsinə də xüsusi əhəmiyyət verilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmakkənd ölkəmizin qlobal çağırışlara uyğun olaraq beynəlxalq qurumlarla, o cümlədən FAO ilə səmərəli əməkdaşlıq etdiyini vurğulayır. O həmçinin bildirir ki, Azərbaycan üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirən etibarlı tərəfdaş ölkədir.

Dövlətin aqrar sektorda apardığı islahatlar, fermerlərə edilən güzəştlər, beynəlxalq təcrübədən istifadə öz müsbət nəticələrini verir. O nəticələrdən əsası əvvəllər xarici ölkələrdən idxal etdiyimiz bir çox məhsulları indi yerli istehsalın əvəz etməsidir. Artıq ət, yumurta, süd və süd məhsullarına olan tələbatımız daha çox yerli istehsal hesabına ödənilir. Bununla yanaşı, meyvə-tərəvəz məhsullarının ixracında yüksək nailiyyətlərimiz var. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin açıqladığı məlumata görə, ötən il ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 6,2 faiz artaraq 969,2 milyon dollar təşkil edib.

Bununla belə, ölkənin ərzaq təhlükəsizliyini tam təmin etmək üçün hələ görüləsi çox işlər var. Amma islahatlar da başa çatmayıb və yəqin ki, gələcəkdə bu sahədə daha böyük uğurların əldə edilməsinin şahidi olacağıq. Bir də unutmayaq ki, Azərbaycanın kənd təsərrüfatına yararlı olan minlərlə hektar ərazi işğaldan azad edildikdən sonra həmin ərazilərdən təyinatı üzrə istifadə olunmağa başlayıb və tezliklə bunun da nəticəsini görəcəyik.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Seçkilərdən seçkilərə

# Ümidlər doğrulur

**Son 20 ildə Azərbaycanda əksər kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi təmin olunub. Bununla yanaşı, qlobal dəyər zəncirinə inteqrasiyanın güclənməsi nəticəsində kənd təsərrüfatı məhsulları ixracının həcmi 10 dəfədən çox artıb.**

## İndi ölkəmizin ərzaqla təminatı əsasən Azərbaycan kəndinin üzərinə düşür



Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən məlum hadisələr ölkənin kənd təsərrüfatına da böyük zərbə endirmişdi. Aqrar sektorun pambıqçılıq kimi aparıcı sahəsi tənəzzülə uğramış, üzüm bağları məhv edilmiş, tütünçülük, baramaçılıq, çəltikçilik və s. demək olar ki, tam unudulmuşdu.

Yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan kəndində həyat yenidən qaynadı, torpaq yenidən canlandı. Ümummilli Lider keçmiş SSRİ məkanında ilk dəfə olaraq torpaq islahatı həyata keçirdi, kəndli öz torpağının, öz taleyinin sahibi oldu.

Lakin kənd təsərrüfatında işlərin tam qaydasına düşməsi üçün çox vaxt lazım gəldi. Çünki kolxoz və sovxozlar dağılmış, onlara məxsus əmlak talan edilmişdi. Torpağı əkib-becərmək üçün texnika, gübrə, toxum və s. çatışmırdı. Tədricən öz məcrasına düşən işlərə əsl təkanı isə 2004-cü ildən başlayaraq regionların sosial-iqtisad inkişafına yönəldilən dövlət proqramları verdi. Daha sonra aqrar sahənin inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrildi. Unudulmuş sahələrin hamısının dirçəldilməsi tam ciddiliyi ilə gündəmə gəldi. Belə ki, 2017-ci ilin iyul ayında "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edildi. Pambıqçılıq rayonlarında sahənin inkişafını hədəfləyən müşavirələr keçirildi. 2011-ci ilin dekabrında qəbul edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", həmçinin 2018-ci ilin mayında təsdiqlənən "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" ölkədə üzümçülüyün yenidən genişləndirilməsinin, innovativ texnologiya əsasında inkişafının, sənaye miqyasında istehsal edilən müxtəlif çeşidli üzüm məhsullarının daxili və xarici bazarlara çıxarılmasının əsas istiqamətlərini müəyyənləşdirdi. 2017-ci ilin avqust ayında barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirildi. Həmin ilin noyabrında təsdiq edilən sənəd isə "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" idi. Son illər, eləcə də respublikanın hər tərəfində ənənəvi, intensiv və superintensiv bağlar salınması geniş vüsət alıb.

Bir sözlə, kənd təsərrüfatının elə bir sahəsi yoxdur ki, dövlətin diqqət mərkəzində olmasın. Eyni zamanda aqrar sahə üzrə dövlət dəstəyi, o cümlədən maliyyələşmə mexanizmi təkmilləşdirilib, müasir tələblərə uyğun aqrar sığorta sistemi yaradılıb və investisiyaların cəlbi üzrə stimullar sistemi formalaşdırılıb. Sahədə idarəetmə sistemi təkmilləşdirilib, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi tam tətbiq olunub, geniş əhatəli məlumat bazaları yaradılıb. Kənd təsərrüfatında intensiv inkişaf trendi formalaşdırılıb, innovasiyalardan istifadə genişlənib, "ağıllı kənd təsərrüfatı" həllərinin tətbiqinə başlanıb. Bütün bunlar da öz bəhrəsini verir.

Ümumiyyətlə, son 20 ildə kənd təsərrüfatındakı irəliləyişin rəqəmlərdə ifadəsinə nəzər salaq: bu illər ərzində istehsal həcmi real ifadədə 2,1 dəfədən çox artıb. Bununla da qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi aqrar sahənin payına düşüb.

İki onillik müddətində əkin sahələri 25,9 faiz artıb. Görülən ardıcıl tədbirlər sayəsində kənd təsərrüfatına investisiya qoyuluşu 11 dəfə yüksəlib. Əsas kənd təsərrüfatı bitkilərinin istehsalında əhəmiyyətli artım əldə edilib. Belə ki, dənli və dənli paxlalıların istehsalında 57,9 faiz artıma nail olunub. Digər bitkilərin də istehsalı artıb (kartof 31,4 faiz, meyvə və giləmeyvə 2,2 dəfə, tərəvəz 74,5 faiz, pambıq 2,8, üzüm 3,5 dəfə, çay19 faiz).

Heyvandarlıq sahəsində də son 20 ildə xeyli irəliləyiş olub. Əsas heyvandarlıq məhsullarından kəsilmiş ət istehsalında 2, süd istehsalında 2, bal istehsalında 12,3 dəfə artım müşahidə edilib.

Təkcə keçən il kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12 milyard 210,6 milyon manat təşkil edib. Bunun 6 milyard 276,7 milyon manatı heyvandarlıq, 5 milyard 933,9 milyon manatı bitkiçilik məhsullarının payına düşüb. 2022-ci illə müqayisədə kənd təsərrüfatının istehsalı 3, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2, bitkiçilik məhsulları üzrə 2,7 faiz artıb.

Keçən il qarğıdalı da daxil olmaqla, 948,3 min hektar sahədən, hər hektardan orta hesabla 33 sentner olmaqla ilkin çəkidə 3 milyon 248,6 min ton dənli və dənli paxlalı bitkilər toplanıb. Ondan əvvəlki illə müqayisədə 2,8 faiz çox məhsul götürülüb. İstehsal olunmuş dənli və dənli paxlalı bitkilərin 56,4 faizini buğda təşkil edib, buğdanın məhsuldarlığı 33,8 sentner olub. Bundan əlavə, 2022-ci ildəkindən çox tərəvəz, meyvə və giləmeyvə, üzüm, yaşıl çay yarpağı, tütün yığılıb.

Heyvandarlıq sahəsində 2022-ci illə müqayisədə ət istehsalı 3,1, süd istehsalı 0,9, yumurta istehsalı 8,4, barama istehsalı 4,6 faiz artıb.

Ölkədə 2024-cü ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini aparılıb. Cari il yanvarın 1-i vəziyyətinə 1 milyon 25,4 min hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib. Səpin aparılmış sahənin 99 faizini, yaxud 1 milyon 15,6 min hektarını dən üçün payızlıq bitkilər təşkil edib. Bunun da 598,3 min hektarı buğda, 417,1 min hektarı arpa, 0,2 min hektarı çovdar əkinlərinin payına düşüb.

Deməli, bu ilin də məhsulunun təməli qoyulub. Sanki təbiət də insanlara bu işdə dəstək verir. Ölkənin hər tərəfinə yağan qar çöllərə, tarlalara bar-bərəkət, bizlərə bol ruzi vəd edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Əmək və Məşğulluq" altsistemi daha bir beynəlxalq müsabiqədə qalib oldu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) Beynəlxalq Məlumat Korporasiyasının (IDC) "The IDC Future Enterprise Awards" müsabiqəsində "Güvənli gələcəyin ən yaxşısı" kateqoriyası üzrə qalib seçilib.**

Münsiflər heyəti ƏMAS barədə təqdim olunmuş məlumatları təhlil edərək bu e-sistemi rəqəmsal etibarlılıqda ən yüksək standartlara cavab verən sistem kimi qiymətləndirib. ƏMAS-ın hökumət və vətəndaş cəmiyyəti institutları, özəl sektor və vətəndaşlar üçün uğurlu bir layihə olduğu xüsusi vurğulanıb.

"The IDC Future Enterprise Awards" müsabiqəsi rəqəmsal strategiyalar üzrə ən yaxşı təcrübələri bölüşmək, davamlı rəqəmsal həllərin tapılmasına yardımçı olmaq, güvənli e-layihələri önə çıxarmaq məqsədi daşıyır.

Müsabiqəyə İsveç, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İsveçrə və Türkiyə də daxil olmaqla bir çox ölkələrdən 600-dən çox layihə təqdim edilib, onlardan 19-u, o cümlədən ƏMAS qaliblər siyahısında yer alıb.

Xatırladaq ki, 2022-ci ildə istifadəyə verilmiş "Əmək və Məşğulluq" altsistemi ötən il BMT-nin "Cənub-Cənub" əməkdaşlığı platformasında uğurlu innovativ həllərdən biri kimi təqdim edilib.

Beynəlxalq Telekommunikasiya İttifaqının "Ümumdünya İnformasiya Cəmiyyəti Sammiti Forumu - 2023"-də isə ƏMAS "Çempion layihə" seçilib.

## 2026-cı ildə qeyri-neft məhsullarının ixracının dəyəri 5 milyard dollara çatacaq

**Hazırlanan Milli İxrac Strategiyasında qısa və orta perspektivdə mövcud məhsulların yeni bazarlara, uzunmüddətli perspektivdə isə yeni məhsulların yeni bazarlara ixracı hədəflənir.**




Bu barədə AZPROMO-nun icraçı direktorunun müavini Tural Hacılı "Qeyri-tarif maneələri və xidmət ticarətinin qaydaları ilə bağlı maraqlı tərəflərlə məsləhətləşmələr" mövzusunda keçirilən tədbirdə deyib.

O bildirib ki, 2021-ci illə müqayisədə 2026-cı ildə Azərbaycanın qeyri-neft ixracının 85 faiz, yəni təxminən 5 milyard dollar səviyyəsinə çatdırılması nəzərdə tutulur.

# Azərbaycanın sosial müdafiə sistemi müasir tələblər səviyyəsindədir



**Yaşına, imkanına baxmayaraq, hər kəsin sosial müdafiəyə ehtiyacı olur. Çünki heç kim hər an baş verə biləcək təhlükələrdən, neqativ hadisələrdən sığortalanmayıb. Biz hələ qocalmağı, Allah eləməmiş ən müxtəlif səbəblərdən əlil olmağı demirik. Elə bu səbəbdəndir ki, sosial siyasət hər bir dövlətin, hökumətin olmazsa olmaz fəaliyyət sahəsidir.**

Bu gün bütün dünyada sosial müdafiə sistemləri, demək olar ki, modern üslubda həyata keçirilir. Azərbaycanda da bu sahədə ciddi keyfiyyət dəyişikliyi müşahidə olunur. Bu dəyişikliyin kökündə dayanan isə mütərəqqi islahatlardır. Həyata keçirilən islahatlar, sosialyönümlü layihələr ekspertlərin "sosial inqilab xarakterli" adlandırdıqları qərarlarda, fərman və sərəncamlarda əksini tapıb. Rəsmi rəqəmlərə müraciət edək: ötən 20 ildə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım baş verib. Minimum aylıq əməkhaqqı 38,3 dəfə artırılaraq 345, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 923 manata çatıb. Minimum pensiyaların mütəmadi artırılması, yəni hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilməsi təmin olunub. Bu hesaba minimum pensiya 14 dəfə artırılaraq 280, orta aylıq pensiya 18,2 dəfə artaraq 436, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 467, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 367, ailə başçısını itirməyə görə orta aylıq pensiya 19 dəfə artaraq 411 manata çatıb. 2003-cü ildə orta aylıq pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumundan 2 dəfə aşağı olduğu halda, hazırda bu məbləğ 436 manat olmaqla həmin göstəricini 2,2 dəfə üstələyir.

Ölkədə xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti də 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, 2023-cü ilin əvvəlində isə 41,1 faizə çatıb. Bu da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyişdir.

2007-ci ilin əvvəlindən şəhid ailələri və 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Ötən dövrdə həmin təqaüdün məbləği şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600, I dərəcə əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500, II dərəcə əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400, III dərəcə əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb. Bu təqaüdlərlə yanaşı, həmin kateqoriyalardan olan şəxslər aylıq pensiya və müavinətlərlə də təmin edilirlər.

2018-2023-cü illər yeni və sürətli sosial inkişaf mərhələsi kimi qeydə alınıb. Həmin dövrdə 4 milyondan çox vətəndaşı əhatə edən və illik maliyyəsi 7 milyard manata yaxın olan 4 islahat paketi icra olunub. Minimum pensiyada 2,5, minimum əməkhaqqında 2,7, orta aylıq pensiyada 2,1, sosial müavinət və təqaüd ödənişlərində 5, median əməkhaqqında 2,1, əməkhaqqı fondunda 2,6 dəfə artıma nail olunub. Orta aylıq əməkhaqqında 70, işsizliyə görə sığorta ödənişlərinin orta aylıq məbləğində isə 52 faiz artım müşahidə edilib.

Bu gün ölkəmizin sosial müdafiə istiqamətində apardığı islahatlar sayəsində Azərbaycan modeli formalaşıb. Həmin modelin təməlində Azərbaycan vətəndaşının rifahı, sosial güvənliyi dayanır. Özü də vətəndaş rifahının yaxşılaşması istiqamətində görülən işlər yalnız maaşların, pensiya və müavinətlərin artması ilə yekunlaşmır. Azərbaycanda aparılan sosial siyasətin məzmunu həm də əhalinin, onların məşğulluğunun artırılması, daha yaxşı yaşamaları üçün əlavə gəlirlər əldə edə bilməsi üçün şəraitin yaradılmasından ibarətdir. Son 20 ildə 2 milyondan çox iş yerinin açılması, işsizliyin 40 faizdən 5, yoxsulluğun 49 faizdən 5 faizə enməsi bu uğurlu siyasətin təsdiqidir.

Görülən bütün bu sosial müdafiə tədbirləri sayəsində indi cəmiyyətin hər bir üzvü özünün qabiliyyəti, bacarığı, istedadı hesabına gəlir əldə etmək imkanı qazana və onu sığortalaya bilər. Bu o deməkdir ki, Azərbaycanın sosial müdafiə sistemi müasir çağırışlara cavab verəcək səviyyədə təkmilləşdirilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ötən il DOST mərkəzlərində 702 min vətəndaşa xidmət göstərilib

**2023-cü il ərzində DOST mərkəzlərində 702 min vətəndaşa xidmət göstərilib. DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 97,7 faiz, orta xidmət müddəti isə 7 dəqiqə 5 saniyə təşkil edib.**




DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində növbəti addım olaraq 2023-cü il il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdədə Qarabağ Regional DOST mərkəzinin açılışı olub. Beləliklə, DOST mərkəzlərinin sayı 7-yə çatıb.

Həmçinin ötən ilin noyabr ayında İsmayıllıda əlilliyi olan şəxslər və digər həssas qrupların yaradıcı potensialının inkişafına dəstək məqsədi daşıyan "DOST Evi"nin açılışı olub.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əsasında 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur.

"Könüllü DOST" proqramına isə ötən il 25,6 mindən çox müraciət olub və proqrama daha 1520 nəfər cəlb edilib.

## Azərbaycanda internetin sürəti 30 faiz artıb

**Azərbaycanda genişzolaqlı internetin sürəti son 12 ayda artaraq ortalama 35,25 Mbit/s-i keçib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 2022-ci ilin dekabr ayında internetin sürəti 27,15 Mbit/s olub ki, bu da 30 faiz artım deməkdir.




Qeyd edək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi çərçivəsində müxtəlif tutumlu mis kabellər və əvvəlki dirəklər istismardan çıxarılaraq kütləvi şəkildə müasir standartlara cavab verən fiber-optik kabellərlə və yeni dirəklərlə əvəzlənir. Burada əsas məqsəd dövlət-özəl tərəfdaşlıq modeli əsasında bir neçə telekommunikasiya operatorunun birgə səyləri nəticəsində minimum 25 Mbit/s internet sürəti ilə ölkənin əksər regionlarını əhatə edən genişzolaqlı şəbəkə qurmaqdan ibarətdir.

## Davamlı inkişaf, möhtəşəm quruculuq, böyük Zəfər








# Azərbaycanın müdafiə sənayesi sürətli inkişaf yolundadır

**Azərbaycanın ötən 20 illik tarixi ölkə sənayesinin bütün sferalarının sürətli yüksəlişi, o cümlədən buna qədər mövcud olmamış yeni sənaye sahələrinin yaradılması ilə əlamətdardır. Xüsusilə qeyd edilməlidir ki, bu dövrdə respublikamızda həyata keçirilən inkişaf strategiyası kompleks məzmun daşıyaraq tamamilə yeni müdafiə sənayesinin yaradılmasını əhatə etmişdir. Nəticə etibarilə Azərbaycanın barəsində qürurla bəhs edəcəyimiz mütərəqqi və modern müdafiə sənayesi formalaşdırılmışdır.**

### Heydər Əliyevin yaratdığı möhkəm bünövrə

Bu gün uğurları ilə fəxr etdiyimiz Azərbaycanın müdafiə sənayesinin ilk intibah dövrü, onun etibarlı təməllərinin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə respublika iqtisadiyyatının digər sahələri ilə yanaşı, müdafiə sənayesinin yaradılması və inkişaf etdirilməsi sahəsində də mühüm işlər görülmüşdü. Hər bir sahədə respublikamızın gələcəyini düşünən Heydər Əliyev Azərbaycanda yeni sənaye müəssisələrinin, o cümlədən hazırda ölkəmizin müdafiə sənayesinin əsasını təşkil edən müəssisələrin yaradılması məsələsini hər zaman diqqət mərkəzində saxlamış, bu barədə müxtəlif vaxtlarda SSRİ rəhbərliyi qarşısında məsələ qaldırmış və istəyinə nail olmuşdu.

Ulu Öndər Heydər Əliyevin təklifləri və gərgin zəhməti sayəsində Azərbaycanda Radio Maşınqayırma zavodu ("Robot" zavodu), Tərtərdə Lionozov Elektromexanika zavodunun filialı, Xaçmazda, Siyəzəndə və Lənkəranda "Kondesator" zavodları yaradılmışdı. Habelə Heydər Əliyevin təşəbbüsləri ilə Bakı "Mikrosxematexnika" Xüsusi Konstruktor Bürosunun bazasında "Azon" zavodu, Elektron Hesablama Maşınları zavodu qısa müddət ərzində tikilib istismara verildi. Xalqımızın dahi övladı Azərbaycanda hərbi sənaye kompleksinin və ağır maşınqayırma sənayesinin inkişafına təkan verəcək "Ulduz" Elmi-İstehsalat Birliyi, Əli Bayramlı "Araz" zavodu, "Rabitə" Elmi-Tədqiqat İnstitutu kimi yeni müəssisə və zavodların tikilib istismara verilməsinə də nail olmuşdu. Azon Optika-Mexanika ("Alov") zavodunun filialının, gəmiqayırma sənayesi üzrə Bakı Elektro Mexaniki İnstitutunda yeni istehsal sahələrinin, sonradan onun bazasında "Nord" Elmi-İstehsalat Birliyinin yaradılması, aviasiya sənayesi üzrə istehsal sahələrinin genişləndirilməsi də məhz Heydər Əliyevin təşəbbüslərinin nəticəsi idi və bütün bunlar müdafiə sənayesinin inkişafına təkan vermişdir.

1978-ci ildə "Kaspi" Elmi Mərkəzinin bazasında Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun yaradılması, 1982-ci ildə isə Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu təcrübi istehsalat sahəsinin və poliqonunun əsasında Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyinin təşkil edilməsi keçmiş SSRİ dövründə ölkəmizdə kosmik tədqiqatlar sahəsində fəaliyyəti açıqlanan ilk müəssisələr idi.

Bütövlükdə 1970-1982-ci illərdə respublika ərazisində müdafiə təyinatlı elmi və istehsal müəssisələri də daxil olmaqla çoxlu sayda zavod, fabrik, istehsalat sexləri istifadəyə verilmişdi. O dövrdə Azərbaycanda istehsal edilən sənaye məhsulları dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə müdafiə sənayesində möhkəm təməlləri qoyulmuşdu.

### Müdafiə sənayesinin modern inkişaf mərhələsi

Bu gün Azərbaycanın inkişafı, ölkəmizin dünya birliyində öz yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyev ideyalarının yaşamasının, Ümummilli Liderin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Hər bir uğurumuz göstərir ki, Ümummilli Liderimizin siyasi kursu, milli inkişaf konsepsiyası layiqincə davam etdirilir.

Xatırladaq ki, respublikamızın müdafiəsini təmin edən ordunun maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 2003-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003-2005-ci illərdə inkişafına dair Dövlət Proqramı" təsdiq edilib. Bu proqramda hərbi sahədə kənardan asılılığın azaldılması və Silahlı Qüvvələrimizin yeni məhsullarla təminatı nəzərdə tutulurdu. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamına əsasən, Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi ləğv edilib və onun bazasında Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılıb.

Azərbaycan Prezidentinin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılmasından sonra respublikamızda bu sahənin inkişafı tamamilə yeni mərhələyə qədəm qoyub. Yaradıldığı vaxtdan etibarən Müdafiə Sənayesi Nazirliyi qəbul edilmiş strateji proqram və planlar üzrə Silahlı Qüvvələrin imkan və qabiliyyətinin qarşıda duran mühüm vəzifələrə uyğun inkişaf etdirilməsi, habelə əməliyyatların yeni üsul və formalarla aparılması üçün zəruri silah, hərbi və xüsusi texnika növlərinin tətbiqinə, onların yerli istehsalına və təminatına tam və fasiləsiz səfərbər olunub. Nazirliyin "İqlim" Elmi İstehsalat, "Telemexanika", "Peyk", "Azon", "Alov", Elektron Hesablayıcı Maşınlar və "Radioquraşdırma" , "Dalğa", "Araz" , "Avia-Aqreqat, "Sənayecihaz" kimi müəssisə və zavodlarında Silahlı Qüvvələrimizin müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla, eləcə də xalq təsərrüfatını maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələri ilə təmin etmək üçün onlarca yeni istehsalat sahələri yaradılıb.














### Tapança, pulemyot, minaatan, qumbaraatan, snayper tüfəngi, PUA, zirehli hərbi texnika…

Həyata keçirilən tədbirlərin nəticəsi kimi, ilk növbədə, Azərbaycan Silahlı Qüvvələrinin atıcı silahlara olan tələbatı nəzərə alınaraq, piyada və tank əleyhinə minaların, qumbaraatanların, minaatanların, müxtəlif çaplı tapança, avtomat, pulemyot, snayper tüfəngləri və patronların istehsalı mənimsənilmiş və seriyalı tədarükünə başlanılmışdır. Məsələn, "Zəfər", "Zəfər-K", "İnam" tapançaları, PKT, PKM, pulemyotları, "Mübariz", "İstiqlal", "Yalquzaq", "Yırtıcı" snayper tüfəngləri, "Boran" artilleriya qurğusu, "Qaya" tank əleyhinə əl qumbaraatanları, "Komando" tipli "Aşırım" minaatanları, "Matador" və "Marauder" zirehli hərbi texnikaları keyfiyyət göstəricilərinə görə, dünya müdafiə sənayesi sektorunda ən qabaqcıl silah və texnikalardan hesab olunur.

Azərbaycanın iqtisadi imkanları ilbəil artdıqca güc strukturlarının müasir standartlar səviyyəsində və özündə yeni texnologiyaları cəmləşdirən silah sistemləri ilə təchiz edilməsi, bununla yanaşı, XXI əsr müharibələrinin müqəddəratını həll edən kəşfiyyat və zərbə pilotsuz uçuş aparatlarının - PUA-ların yerli istehsalı sahəsində də mühüm addımlar atılıb. Bu məqsədlə Müdafiə Sənayesi Nazirliyinin tabeli qurum və müəssisələrində qısa müddət ərzində yenidənqurma işləri aparılıb, milli mütəxəssislərin hazırlığı sonrakı illərdə yüksək texnologiyalı hərbi məhsulların daha da təkmilləşdirilməsinə şərait yaradıb. "Zərbə" , "Orbiter 1", "Orbiter 1 KM" (İti qovan), "Orbiter 2", "Orbiter 3" kimi PUA-lar məhz milli müdafiə sənayemizin uğurlarıdır. Hazırda PUA-ların, kəşfiyyat-patrul maşınlarının, döyüş modullarının, müxtəlif növ simulyasiya sistemlərinin işlənilməsi, ölkəmizin güc strukturlarının tələblərinə uyğun modernləşdirilməsi və seriyalı istehsalının təşkili ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində "Bakı-Ekspo" Mərkəzində təşkil olunan "SPECA Ölkələri Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərgidə isə ilk dəfə olaraq ölkəmizdə yeni yaradılan "AH-12,7" iriçaplı pulemyot da təqdim olunub. Bu sərgidə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxın məsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və sair daxil olmaqla, 88 adda müdafiə təyinatlı məmulatlar nümayiş etdirilib. MSN-in nümayiş etdirdiyi bu və digər məhsullar sərgi iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Ötən müddətdə bir sıra ölkələrin tanınmış şirkətləri ilə əməkdaşlıq çərçivəsində mənimsənilərək tətbiq edilmiş texnologiyalar üzrə müdafiə sənayemizdə 50-dən çox yeni istehsal sahəsi yaradılıb. Atıcı silahlar və onların patronlarının, tapança, avtomat, pulemyot və toplar üçün müxtəlif çaplı lülələrin, 122 və 125 millimetrlik tank və artilleriya topları üçün atəş yığımlarının istehsalı, qumbaraatan və minaatanların atəş yığımlarının doldurulma sahələri, optik cihazların, zirehli döyüş maşınlarının və sair texnikaların hazırlanması bu yöndə görülmüş işlərin bariz göstəricisidir.

Azərbaycanın müdafiə təyinatlı məhsullarının xarici bazarlara çıxarılmasına xüsusi önəm verən Müdafiə Sənayesi Nazirliyi hərbi-texniki əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı faydalı əlaqələrin inkişafı və yerli istehsalın ən yeni nailiyyətlərinin nümayişi məqsədilə müxtəlif ölkələrdə keçirilən beynəlxalq müdafiə, silah və hərbi-xüsusi texnika sərgilərində mütəmadi iştirak edir. Son illər İstanbulda "İDEF-2021", Əbu-Dabidə "İDEX-2021", Minskdə "MİLEX-2021", Belqradda "Partner-2021", Moskvada "ARMİYA-2021", Dohada "DİMDEX-2022", Kuala-Lumpurda "DSA-2022", Parisdə "Euronaval-2022", İstanbulda "SAHA EXPO-2022", İordaniyada "SOFEX-2022", Kəraçidə "İDEAS-2022", Əbu-Dabidə "İDEX-2023", İstanbulda "İDEF-2023, Qahirədə "EDEX-2023 kimi mötəbər sərgilərdə Müdafiə Sənayesi Nazirliyi yüksək səviyyədə təmsil olunub.

2014-cü ildən etibarən iki ildən bir Azərbaycanda da "ADEX" Beynəlxalq Müdafiə Sərgisi təşkil edilir. Son olaraq 2022-ci ilin sentyabrında Bakıda IV "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri keçirilib. Belə sərgilər ölkəmizin müdafiə sənayesi kompleksini dünyaya tanıdır.

### Yerli məhsullar döyüş sınağından layiqincə çıxdı

2020-ci ilin Vətən müharibəsində Azərbaycan dövləti torpaqlarını işğaldan azad edərək tarixi ədaləti yoluna qoydu. 2023-cü ilin sentyabrında isə antiterror tədbirlərinin nəticəsində Qarabağda erməni separatçılığı darmadağın edildi. Qazandığımız bu zəfərlər bütün dünyaya Azərbaycanın həm də hərbi gücünü, qüdrətini nümayiş etdirdi. Eyni zamanda bu qələbələr Azərbaycanın gücünün və xalqımızın milli birliyinin təcəssümü oldu.

İndi bütün azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağı qürurla dalğalanır. Hər kəsə, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq və ərazi bütövlüyünü öz gücümüzə bərpa edən ölkə kimi bundan sonra da ancaq və ancaq irəliyə gedəcəyik.

Fəxr hissi ilə qeyd etməliyik ki, Azərbaycanın dövlətçilik tarixinin və hərbi salnaməsinin şərəfli səhifəsini təşkil edən Vətən müharibəsindəki tarixi Zəfərin qazanılmasına Müdafiə Sənayesi Nazirliyi özünün layiqli töhfələrini verdi. Nazirliyin fədakar kollektivi 44 günlük Vətən müharibəsində gücləndirilmiş iş rejimində çalışıb, Şanlı Azərbaycan Silahlı Qüvvələrini müasir silah-sursat, döyüş texnikası və PUA-larla fasiləsiz təchizatını təmin edib. MSN-in zavod və müəssisələrində istehsal edilən silah və sursatlar bu savaşda sınaqdan layiqincə çıxıb.

Eyni zamanda Müdafiə Sənayesi Nazirliyinin döyüş əməliyyatlarında iştirak edən işçiləri qəhrəmanlıq nümunələri göstəriblər. Onlardan üç nəfər şəhidlik zirvəsinə ucalıb, 72 nəfər isə qazi olub.

Aydın məsələdir ki, müdafiə sənayesinin davamlı inkişafı üçün müasir biliklərə və bacarıqlara malik kadrların olması vacib məsələlərdəndir. Təsadüfi deyil ki, bu cür müəssisələrin uğurlarının əsas səbəblərindən biri mütəxəssislərin təcrübəsi ilə bağlıdır.

Gənc mütəxəssislər Müdafiə Sənayesi Kompleksi üçün yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə Nazirlər Kabinetinin qərarı ilə yaradılmış Azərbaycan Texniki Universitetinin Xüsusi texnika və texnologiya fakültəsinin məzunları arasından seçilir. Bu da onu göstərir ki, hazırda respublikamızda müdafiə sənayesi kompleksi üçün yüksəkixtisaslı kadr hazırlığına hər cür imkanlar var. Dövlətimiz yüksəkixtisaslı mütəxəssis hazırlığı üçün gərəkən bütün addımları atır.

Qarşıda isə bizi yeni möhtəşəm uğurlar gözləyir. Təbii ki, bu yolda respublikamızın müdafiə sənayesi də özünün yeni töhfələrini verəcək. Hazırda milli sənayemizin bu istiqaməti sürətli inkişaf yolundadır. Təsadüfi deyil ki, respublikamız öz daxili ehtiyaclarını ödəməklə yanaşı, onlarla ölkəyə hərbi məhsul ixrac edir. Bütövlükdə isə müdafiə sənayesində əldə edilən bütün uğurlar bu sahənin modern çağırışlara uyğun inkişafı ilə bağlı düşünülmüş və əsaslandırılmış mütərəqqi dövlət siyasətinin nəticəsində mümkün olub.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*





# Mədəniyyət





Keçmişdən bu günə

## Heykəlləşən dahilər







**Azərbaycan heykəltaraşlıq sənətinin tarixi qədimdir. Dəqiq deyil ilk heykəllər ölkəmizin hansı guşələrində yaradılıb, müəllifləri kim olub. Ancaq bu sənətin qədimliyini müxtəlif ərazilərimizdə arxeoloji qazıntılar nəticəsində aşkarlanan və eramızdan əvvələ aid edilən nadir heykəl nümunələri təsdiqləyir. Həmin heykəltaraşlıq əsərləri Azərbaycanda əkinçilik və maldarlıqla məşğul olan tayfaların mədəniyyəti, incəsənəti, dünyagörüşü barədə zəngin məlumatlar verir.**

Əsrlər keçdikcə, dünyanın digər qədim sivilizasiya məskənləri kimi, Azərbaycanda da heykəltaraşlıq sənəti inkişaf edib, üslubu, hazırlanma texnologiyası təkmilləşib. Bu gün ölkəmizdə heykəltaraşlıq incəsənətin əhəmiyyətli sahələrindən sayılır. Geniş küçə və meydanlarımıza xüsusi yaraşıq və məna verən heykəllərin əksəriyyəti yüksək sənətkarlıq nümunələridir. Həmin heykəltaraşlıq əsərlərinin bir çoxu həm də ölkəmizin tarixində iz qoymuş, xalqımızın tərəqqisində misilsiz xidmətlər göstərmiş şəxsiyyətlərə ehtiramımızın ifadəsidir.

Ötən əsrin 20-ci illərindən küçə və meydanları bəzəyən heykəllərin arasında Azərbaycanın görkəmli şəxsiyyətlərinin obrazları geniş yer tutmağa başladı. Belə abidələrin ilki - şair Mirzə Ələkbər Sabirin abidəsi Bakıda 1922-ci ildə qoyuldu. 1930-cu ildə yazıçı-dramaturq Mirzə Fətəli Axundzadənin heykəli paytaxtımızda əbədi qərar tutdu. Adı Azərbaycan tarixinin şərəfli səhifələrini bəzəyən Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Üzeyir bəy Hacıbəyli, Həsən bəy Zərdabi və başqalarının heykəlləri də müxtəlif illərdə Bakının meydanlarında, küçələrində ucaldıldı. Bu istiqamətdə işlər uğurla davam edir.

Son illər yaradılan heykəltaraşlıq əsərlərindən biri Hacı Zeynalabdin Tağıyevin heykəlidir. Azərbaycan xalqının təəssübkeş, xeyirxah, maarifpərvər övladı, ictimai xadim Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında 2020-ci il martın 11-də dövlət başçısı tərəfindən sərəncam imzalandı. Heykəlin hazırlanması ilə bağlı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən heykəltaraşlıq müsabiqəsi keçirildi. Müsabiqəyə 20-dən çox layihə təqdim edildi. Onların arasından heykaltaraş, Xalq rəssamı Xanlar Əhmədovun layihəsi seçildi.




"İçərişəhər" metro stansiyasının qarşısında ucaldılan heykəlin açılış mərasimi 2022-ci il yanvarın 18-də keçirildi. Mərasimdə qeyd edildi: "Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir".

Qeyd edək ki, müəllifi heykəltaraş Xanlar Əhmədov olan heykəl bürüncdəndir. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Həmçinin Heydər Əliyev Fondu tərəfindən qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunan məlumatlar Brayl əlifbası ilə də təqdim edilib.

Dünyaşöhrətli azərbaycanlı müğənni və bəstəkar Müslüm Maqomayevin abidəsi də Bakı şəhərinin ən gözəl yerlərindən birində - Dənizkənarı Milli Parkdadır.

2020-ci ildə Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə dəyərli töhfələr vermiş görkəmli sənətkar, məşhur opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı sərəncam imzalanmışdı.

2022-ci il avqustun 17-də Bakının Dənizkənarı Milli Parkında ucaldılan Müslüm Maqomayevin abidəsinin açılışı oldu. Həmin gün Azərbaycan xalqının böyük oğlu Müslüm Maqomayevin anadan olmasının 80 illiyi idi.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti və birinci xanım Mehriban Əliyeva, Müslüm Maqomayevin həyat yoldaşı Tamara Sinyavskaya da iştirak etdilər.

Bu gün Azərbaycan xalqı haqlı olaraq Müslüm Maqomayevlə fəxr edir: "Çünki o, həm böyük müğənni, həm də böyük bəstəkar idi. Sovet estradasında onun tayı-bərabəri yox idi və bu gün də Müslüm Maqomayevin ifasında səslənən mahnılar hər birimizi duyğulandırır".

Abidənin müəllifi heykəltaraş, Xalq rəssamı Ömər Eldarovdur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Teatr xadimləri

## Təlatümlərdə keçən ömür

**Aktrisalığa doğulduğu Sarevo kəndində teatr həvəskarlarının hazırladıqları tamaşalarda rol almaqla başlayan Mərziyyə Yusif qızı Davudova ilk dəfə Həştərxanda geniş tamaşaçı qarşısına çıxıb. "Birinci teatr" adlı pyesdə oynadığı Ərəfə rolu ona uğur qazandırıb.**



O zaman Həştərxanda qastrolda olan Hüseyn Ərəblinski aktrisanın səhnə hərəkətlərini, aktrisa-tamaşaçı tandemini bəyənib onu Bakıya dəvət edib. On altı yaşında anasını itirən Mərziyyə 1919-cu ildə Bakıya gəlib Birləşmiş Dövlət Teatrosunun nəzdində fəaliyyət göstərən kollektivdə aktrisa kimi fəaliyyətə başlayıb.

Mərziyə Yusif qızı Davudova 1901-ci ildə Həştərxanın Sarevo çayının sahilində yerləşən eyniadlı kənddə anadan olub. Kəndlərindəki dördillik "Darültəhsil"də oxuduqdan sonra "İqbal" rus-tatar məktəbində təhsil alıb.

18 yaşlı gənc aktrisanın ən böyük arzusu Hüseyn Ərəblinski ilə səhnədə tərəf-müqabili olmaq idi. 1919-cu ildə Ərəblinski öldürüldüyü üçün Mərziyyə Davudova arzusunu reallaşdıra bilməsə də, dövrünün ən güclü səhnə ustalarından biri Abbas Mirzə Şərifzadə ilə dəfələrlə eyni səhnəni paylaşmalı olur. Aralarında yaranan xoş münasibət iki böyük teatr xadiminin ailə qurması ilə tamamlanır. Bu evlilikdən onların Firəngiz adında bir qızları dünyaya gəlir.

Parlaq istedadı ilə özünü təsdiq etməyi bacaran Mərziyyə Davudova qısa bir zamanda Akademik Milli Dram Teatrının aparıcı aktrisalarından birinə çevrilir. Onun səhnə məharətini yüksək qiymətləndirən Cəfər Cabbarlı yazırdı: "Mərziyyə yetkin bir sənətkardır. Aktrisa səhnədəki əhvali-ruhiyyəsi ilə bütün tamaşa salonuna təsir edən heyrətamiz bir istedada malikdir".

O dövrün mətbuatında aktrisanın "Sevil" pyesində Sevil rolunu məharətlə ifa etməsi haqqında onlarca məqalə dərc olunub. Yazılanlara görə, tamaşaya baxmağa gələn çadralı qadınlar elə tamaşa salonundaca çadraları ilə əbədi olaraq vidalaşırmışlar. Müxtəlif zamanlarda Tiflis Azərbaycan Dram Teatrında və Bakı Türk İşçi Teatrında çalışan Mərziyyə Davudova fəaliyyətinin əsas hissəsini Akademik Milli Dram Teatrının səhnəsində keçirib.

Milli Dram Teatrın səhnəsində "Maqbet", "İblis", "Otello", "Sevil" kimi tamaşalarda özünəməxsus rollar ifa edən aktrisa "Hacı Qara", "Bir ailə", "Bakının işıqları" filmlərinə çəkilib. "Bəxtiyar" filmində Bəxtiyarın anası Gülbadam rolunu ifa edib.

Abbas Mirzə Şərifzadə ilə tərəf-müqabili olduğu "İblis" tamaşası ilə böyük uğura imza atan aktrisanın səhnə həyatı uğurlu alınsa da, ailə həyatı uğursuz olur.

1936-cı ildə Xalq artisti adını alan Mərziyyə Davudova 1956-1961-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (hazırkı Azərbaycan Teatr Xadimləri İttifaqı) sədri vəzifəsində çalışır. Aktrisa eyni zamanda Azərbaycan SSR Ali Sovetinin deputatı kimi də fəaliyyət göstərir.

Görkəmli Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, rus və dünya ədəbiyyatı incilərinin rəngarəng obrazlarına səhnə həyatı verən aktrisanın gənc aktyor nəslinin yetişməsində də xidmətləri inkarolunmazdır.

1937-ci ilin repressiyası zamanı aktrisanın həyat yoldaşı Ülvi həbs olunaraq güllələnir. Deyilənə görə, o illərin qorxusu ömrünün sonuna kimi Mərziyyə Davudovanı tərk etməyib. Uzun sürən xərçəng xəstəliyindən əziyyət çəkən M.Davudova 6 yanvar 1962-ci ildə Bakı şəhərində vəfat edib.

Aktrisanın həyatında sevincli, fərəhli günlərin də sayı az olmayıb. "Azərbaycan SSR Xalq artisti", "SSRİ Xalq artisti" kimi yüksək fəxri adlara layiq görülən M.Davudova həm də "Stalin" mükafatı, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri ilə təltif edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Xəbər

## Ümummilli Lider Heydər Əliyevin Yaponiyaya rəsmi səfərinə həsr olunmuş filmin təqdimatı keçirilib



Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfərinə həsr edilmiş filmin təqdimatı olub. Nizami Kino Mərkəzində təqdimatı keçirilən "Bir səfərin izi ilə - Yaponiya" sənədli filmi Ulu Öndərin səfərinin maraqlı məqamlarını əks etdirir.

Ekran əsərinin ideya müəllifi tanınmış səyyah və jurnalist Azər Qəribdir.

Sənədli film barədə təəssüratlarını bölüşən Azər Qərib bildirib ki, bu əsər Ulu Öndərin səfərinin qeyri-rəsmi tərəflərini əks etdirir. Ekran əsərinin çəkilişləri Tokio və Kioto şəhərlərində aparılıb. Filmdə tamaşaçı səfərin qeyri-rəsmi anlarına nəzər salmaqla Yaponiyanın bu iki tarixi şəhərində heyrətamiz səyahətə çıxır.

## Filarmoniyada Xalq artisti Nəriman Məmmədovun əsərləri səsləndirilib



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xalq artisti, bəstəkar Nəriman Məmmədovun yaradıcılığına həsr olunmuş konsert keçirilib.

Filarmoniyadan bildirilib ki, F.Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının instrumental heyətinin müşayiəti ilə solistlər - Əməkdar artistlər Gülüstan Əliyeva, Ehtiram Hüseynov, Sevinc Sarıyeva, xanəndələr Rəvanə Qurbanova, Sərxan Bünyadzadə, Nurlan Əzizbəyli, Vəfa Vəzirova, Nurlana Abdullayeva, Kamran Şəkərov və Murad Laçın öz ifalarını dinləyicilərə təqdim ediblər.

Konsertdə Nəriman Məmmədovun əsərləri səsləndirilib.

## Bolqarıstanda Azərbaycan kinosu gecəsi və fotosərgi təşkil olunub



Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən 16-cı MENAR Beynəlxalq Film Festivalında Azərbaycan kinosu gecəsinin və "Azərbaycana səyahət" adlı fotosərginin açılışı olub.

Bildirilib ki, gecədə ölkəmizin Bolqarıstandakı səfiri Hüseyn Hüseynov və MENAR Beynəlxalq Film Festivalının təşkilatçı şirkətinin rəhbərləri çıxış edib, iştirakçılara Azərbaycanın mədəniyyəti və kino sənəti haqqında məlumat veriblər.

Yanvarın 22-dən 28-dək davam edəcək "Azərbaycana səyahət" fotosərgisində Bolqarıstanın türkəsilli fotoqrafı Arslan Əhmədovun müəllifliyi ilə Azərbaycanın ucqar bölgələrində yaşayan soydaşlarımızın yaşayış tərzini və mədəniyyətini, eləcə də Qafqaz, Talış dağlarının əsrarəngiz təbiətini əks etdirən fotolar nümayiş olunub.

Tədbirlərdə Bolqarıstanın dövlət qurumlarının rəsmiləri, parlamentin üzvləri, yerli mədəniyyət xadimləri, bu ölkədə akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, jurnalistlər, həmçinin yerli və xarici kinosevərlər iştirak ediblər.

Maarifçi qadınlarımız

## Rus-tatar qadın məktəbinin tanınmış pedaqoqu

**Azərbaycanın təhsil tarixində müəyyən rolu və xidmətləri olmuş qadın pedaqoqlardan biri də Leyla xanım Rustəm bəy qızı Sultanovadır. Qeyd edək ki, L.Sultanova Qarabağın qubernatoru təyin edilmiş Xosrov bəy Sultanovun qardaşı - Rüstəm bəyin qızıdır.**



Arxiv materialları əsasında məlum olmuşdur ki, Leyla xanım Rustəm bəy qızı Sultanova 13 oktyabr 1895-ci ildə doğulmuşdur, bəy qızıdır, müsəlman məzhəbinə mənsubdur. O, təhsilini Bakı Müqəddəs Nina qadın məktəbində almışdır. Leyla xanım həmin tədris ocağının tam kursunu bitirdikdən sonra xüsusi olaraq rus dilini öyrənməkdən ötrü 1913-cü ilin sentyabrında elə orada təhsilini davam etdirmiş və məktəbin tədris proqramını müvəffəqiyyətlə yerinə yetirmişdir.

Leyla xanım həmin dövrün müəyyən edilmiş qaydalarına uyğun olaraq Xalq Maarif Nazirliyinin 1874-cü il avqustun 31-də təsdiq edilmiş əsasnaməsi ilə ev müəllimi adına layiq görülmüşdür.

Görkəmli maarifçi qız pedaqoji fəaliyyətlə məşğul olmaqdan ötrü 1916-cı il yanvarın 29-da Bakı Şəhər Duması nəzdindəki Məktəb Komissiyasının sədrinə ərizə ilə müraciət etmişdir. Cavab məktubunda bildirilmişdir ki, Leyla xanım Sultanova yanvarın 30-dan etibarən I rus-tatar məktəbinin işə çıxmayan müəllimi Hənifə xanım Məlikovanı əvəz etmək üçün həmin tədris ocağına təyin olunur.

Yeri gəlmişkən qeyd edək ki, I rus-tatar qadın məktəbinin müdiri olmuş Hənifə xanım Məlikova 1872-ci ildə Tiflisdə Müqəddəs Nina qız gimnasiyasını bitirmişdir. O, həyatının müəyyən dövrlərində Həsən bəy Zərdabinin "Cəmiyyəti-Xeyriyyə" qurumunda tərbiyəçi, Aleksandr "rus-müsəlman" qadın məktəbində (1901-1909) və Bakı şəhəri I qadın "rus-müsəlman" məktəbində müdir vəzifəsində işləmişdir.

Hənifə xanım Məlikova həmçinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) I qadın türk məktəbinin müdiri olmuşdur. O, sovet dövründə də pedaqoji fəaliyyətini davam etdirmişdir. 1935-ci ildə " Əkinçi" qəzetinin 50 illik yubileyi münasibətilə " Həsən bəy Məlikov-Zərdabinin bioqrafiyası" adlı əsərini yazmışdır.

Məktəb Komissiyasının sədri 9 sentyabr 1916-cı ildə Leyla xanım Sultanovaya yeni bir məktub göndərərək ondan xahiş edirdi ki, "sentyabrın 3-dən etibarən müvəqqəti olaraq Persidskaya (indiki Murtuza Muxtarov) küçəsində Nəsrulla Ağa Əlizadənin evində yerləşmiş ikinci qadın rus-tatar məktəbində mövcud olan boş müəllim vəzifəsini tutsun". Arxiv sənədləri təsdiq edir ki, Leyla xanım zamanın tələbi ilə Bakıda müxtəlif qadın məktəblərində pedaqoji fəaliyyət göstərmişdir. L.Sultanova Məktəb Komissiyasının qərarı ilə 5 sentyabr 1916-cı ildə 2-ci şəhər rus-tatar qadın məktəbində ştatda olan müəllim vəzifəsinə təyin olunmuşdur. 1919-cu ilin oktyabrında müsəlman qızların 3-cü ali-ibtidai məktəbinə köçürülmüşdür. Yeri gəlmişkən qeyd edək ki, 1919-cu ildə Bakı şəhəri II rus-tatar qadın ibtidai məktəbi 2-ci qadın türk məktəbi kimi fəaliyyət göstərmişdir. Bu da çox güman cümhuriyyət hökumətinin ölkədə həyata keçirdiyi məktəblərin milliləşdirilməsi siyasəti ilə bağlı idi. Tarixi mənbələr təsdiq edir ki, Leyla xanım Sultanova Azərbaycanda sovet hakimiyyəti qurulanadək pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Lakin təəssüflər olsun ki, sonrakı illər üzrə Leyla xanımın fəaliyyəti haqqında heç bir məlumat əldə etmək mümkün olmamışdır.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1950-ci illərin əvvəllərinə qədər Azərbaycan SSR-də qanlı repressiyalar həyata keçirilməyə başlanmışdı. Həmin repressiyalar Azərbaycanın ali dövlət rəhbərləri, ruhanilər, ziyalılar və varlı kəndlilərlə yanaşı, bütün Azərbaycan əhalisini əhatə edirdi. Repressiyalara əks-inqilabi fəaliyyətdə, casusluqda, antisovet təbliğatının aparılmasında şübhəli bilinən insanların güllələnməsi, həbs edilməsi, əmək düşərgələrinə göndərilməsi və insanların SSRİ-nin digər bölgələrinə deportasiyaları da daxil idi.

XX əsrin 20-50-ci illərində Azərbaycan qadınlarına qarşı repressiyalara məruz qalanlardan biri kimi Leyla xanım Sultanova da qeyd edilməlidir.

Şəlalə Məmmədovanın "Anaların fəryadı" kitabında Leyla xanım Sultanovanın Azərbaycan Fövqəladə Komissiyasının Xüsusi Şöbəsi tərəfindən müsavatçılıqda təqsirli bilinərək 44 nömrəli orderlə 11 iyun 1921-ci ildə həbs edildiyi göstərilir.

Dövrünün tanınmış qadın pedaqoqu Leyla xanım Sultanovanın maarifçilik fəaliyyəti unudulmur, xatirəsi isə daim ehtiramla yad edilir.

*Rafiq SƏFƏROV,*
*Milli Arxiv İdarəsinin*
*baş məsləhətçisi*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● ANIM

## Şəhid ailəsi kimi heç zaman unudulmuruq



**Şanlı tarixi qələbəmizdən 3 ildən artıq bir vaxt keçməsinə baxmayaraq, Azərbaycan xalqı zəfər dolu həmin günləri bu gün də minnətdarlıq hissi ilə xatırlayır. Azərbaycan Ordusunun qazandığı tarixi qələbə təkcə dövlətimizin yox, hər birimizin qürurudur.**

Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atılan gənclər arasında mənim oğlum Seyfəddin Muradov da var idi. O, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək Azərbaycan Ordusunun giziri kimi qarşısına qoyulmuş vəzifə borcunu şərəflə yerinə yetirdi. Lakin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Oğlum şəhid olsa da, onun xatirəsinə dövlətimiz tərəfindən göstərilən hörmət mənə təskinlik verir. Rayon rəhbərliyi tez-tez evimizə gələrək məişət qayğılarımızla maraqlanır. Lazım gəldikdə problemlərimizin həll olunmasına kömək göstərir. Elə bu yaxınlarda yenə də rayon icra hakimiyyətinin başçısı Seymur Orucov qonağımız oldu, qayğılarımızla maraqlandı. Söz yox ki, bütün bu diqqət dövlətin siyasətindən irəli gəlir. Buna görə dövlətimizə minnətdarıq.

**Mahmud MURADOV,**
**Ağstafa rayon Böyük Kəsik kənd sakini, şəhid atası**

● TƏKLİF

## Hər kəs bir ağac əksə...

**Müdriklər deyiblər ki, hər kəs bir ağac əksə, dünyamız başdan-başa cənnət olar. Bu, doğrudan belədir. Onu da deyək ki, bu mühüm məsələ ilə bağlı ölkəmizdə, habelə regionlarımızda ardıcıl tədbirlər həyata keçirilir.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın bu sahədə gördüyü işlər göz qabağındadır. Şəhər və rayonlarda məhəllələrin abadlaşdırılması və orada çoxlu sayda müxtəlif növ ağacın əkilməsi əhali tərəfindən böyük rəğbətlə qarşılanır.

Salyanda da bu məsələ diqqət mərkəzindədir. Payız, qış, yaz aylarında ağacəkmə aksiyaları keçirilir. Eyni zamanda ayrı-ayrı sakinlər də yaşadıqları məhəllələri yaşıllaşdırırlar. Sahibkar İlham Nəzirov bu işdə xüsusi təşəbbüskarlıq göstərir. X.R.Ulutürk küçəsində ona məxsus pərdə dükanının qarşısındakı müxtəlif növ gül kolları, dekorativ ağaclar göz oxşayır. İ.Nəzirovu hər gün bu yaşıl guşədə görmək olar. O, gülləri, ağacları sulayır, diblərini belləyib yumşaldır, alaq otlarını təmizləyir. Onu saldığı yaşıllıqda işləyən gördükdə insanın qəlbindən belə bir arzu keçir ki, kaş bütün insanlar yaşadıqları, işlədikləri ərazini beləcə abadlaşdıraydılar, yaşıllaşdıraydılar.

***Əziz BAXIŞOV,***
***Salyan şəhər sakini***

● QÜRUR

## Bu günləri çox gözləmişdik



**Mən Xankəndinin Kosalar kəndində anadan olmuşam. 1976-cı ildə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını (indiki Aqrar Universiteti) bitirdikdən sonra 1988-ci ilə kimi Xankəndidə müxtəlif vəzifələrdə çalışmışam.**

Günlərin birində öz əllərimlə tikdiyim evimi qoyub, ailəmi də götürüb Tərtərdə məskunlaşmaq məcburiyyətində qaldım. Ermənilər bizi zorla isti yuvamızdan qovdular. O gündən hər gecə evimizi yuxularımda görürdüm. Bu, çox ağır bir hissdir. İndi, çox şükür ki, bütün bunlar arxada qalıb. Doğma Qarabağımız, doğulduğum kənd və yaşadığım şəhər azaddır!

Bu günlər oğlum Aslanla birlikdə Xankəndidə olduq, evimizi gördüm. Ermənilər buranı da pis günə qoyublar. Bununla belə, sevincimizin hədd-hüdudu yoxdur. Biz artıq məcburi köçkün deyilik, tezliklə evimizə, yurdumuza qayıdacağıq.

***Tahir SÜLEYMANOV,***
***Tərtər rayonu***

● TƏHSİL

## Yeni məktəb binasının istifadəyə veriləcəyi günü səbirsizliklə gözləyirik



**Vəlvələ kəndi Qubanın böyük kəndlərindəndir. Amma son vaxtlaracan kəndin müasir məktəb binası yox idi.**

Köhnə məktəb binasının isə maraqlı tarixi var. Ötən əsrin 40-50-ci illərində tikilən Samur-Dəvəçi kanalının işçiləri üçün yataqxana tipli 16 otaqdan ibarət 2 korpuslu birmərtəbə bina inşa olunmuşdu. 70-ci illərdə Vəlvələ natamam məktəb həmin binaya köçmüş, 1980-ci ildən isə həmin məktəbə tam orta məktəb statusu verilmişdir.

Son illərədək valideyn və müəllim heyətinin birgə fəaliyyəti nəticəsində şəhid Çingiz Mursalov adına Vəlvələ kənd tam orta məktəbini hər il birtəhər təmir edib dərslərimizi keçirdik. Amma ötən il məktəb tam yararsız hala düşdü. Çürüyən döşəməsi və uçulan tavanı təhlükə mənbəyi idi.

Həmin dövrdən yeni məktəbin inşasına start verildi. Hazırda tikintisi başa çatmaq üzrə olan yeni məktəb binası dövlətimizin vəlvələlilərə hədiyyəsidir. Bu gün kəndimizdə zirzəmi qatı ilə birlikdə üçmərtəbəli, 50 otaqdan ibarət məktəb binası inşa edilir. Yeni binada hər fənnin ayrıca kabineti, laboratoriyası, idman və akt zalı olacaq. 342 şagirdin təhsil alacağı yeni binada 32 müəllim və 11 nəfər texniki işçi fəaliyyət göstərəcək. Hazırda istilik və havalandırma sistemləri quraşdırılır.

Kənd əhalisi yeni məktəbin istifadəyə veriləcəyi günü səbirsizliklə gözləyir. Məktəbin valideyn komitələri hər dərs həftəsinin sonunda tikintidə çalışanların yanına gəlir, məktəb ərazisinin təmizlənməsinə kömək edirlər.

Ümumiyyətlə, vəlvələlilər təhsilə önəm verən insanlardır. Köhnə, dağılmış məktəbdən çıxan neçə şagird ali təhsil alıb, onlardan bəziləri hazırda məktəbimizdə müəllim kimi fəaliyyət göstərir.

***İsmayıl FƏRZƏLİYEV,***
***Quba rayon Ç.Mursalov adına Vəlvələ kənd tam orta məktəbin direktoru***

● GİLEY

## Qış gəldi, işıq getdi

**Bizim Birinci Şahsevən kəndində xüsusən qış aylarında işıq problemi olur. Külək əsəndə günlərlə işığa həsrət qalırıq.**



Buna səbəb keçən əsrin 60-70-ci illərində çəkilmiş naqillərin sıradan çıxmasıdır. Amma dirəklər betondandır. Beton dirəklər sovetlər vaxtından qalsa da, yararlı haldadır. Problem naqillərdədir. Onlar külək əsəndə qırılır, qırılan naqilləri isə bir-birinə bağlayırlar. Yəni calaq edirlər. Biz isə günlərlə işığa həsrət qalırıq.

Problemlə bağlı "Azərişığ"a müraciət edəndə cavab belə olur ki, qeydə aldıq və tədbir görüləcəkdir. Bu hal hər il təkrar olunur. Amma heç bir tədbir görülmür.

İndi isə ümidimiz sizə, rəsmi dövlət qəzetinədir. Bəlkə bizim bu dərdimizin qəzetinizin səhifələrində işıqlandırılması köməyimizə gələ.

**Məzahir ƏLİYEV,**
**Beyləqan rayon sakini**

● NARAZILIQ

## Qaz sarıdan korluq çəkirik

**Yaşadığımız Çobankol kəndi Zaqatalanın iri yaşayış məntəqələrindəndir. Kənd əhalisinin sayı 2 min nəfərdən çoxdur.**



Uzun illər kənd məktəbində ədəbiyyat və Azərbaycan dili fənnini tədris etmişəm. Artıq təqaüdçüyəm.

Şəki-Zaqatala yolu kəndimizi ikiyə bölür. Qışın qapını döydüyü bir zamanda kənd sakinləri üçün əsas problem istilik məsələsidir. Evlərimizi qızdırmaq üçün çətinliklərlə rastlaşırıq. Çoxlu vədlər verilsə də, hələ də təbii qaza həsrətik. Odun sobaları yandırmaq isə ailə büdcəsinə ağır yükdür, çox bahadır. Qaz yox, odun baha, ev soyuq... Nə edək, necə qızınaq - bilmirik.

Amma ümidsiz də deyilik. İnanırıq ki, xalqa xidməti öz fəaliyyətinin prioritet istiqaməti sayan qüdrətli dövlətimizin qayğı payından tezliklə Çobankol sakinləri də bəhrələnəcəklər.

***Elmira MUSTAFAYEVA,***
***Zaqatala rayonu Çobankol kənd sakini***

## AZƏRBAYCAN-a cavab verirlər

### Ərazi tullantılardan təmizlənmişdir

**"Azərbaycan" qəzetinin 8 dekabr 2023-cü il tarixli sayında dərc olunmuş "Fotofakt"da Abşeron rayonu, Hökməli qəsəbəsi, "beton yol" adlanan ərazidə tullantıların vaxtlı-vaxtında daşınılmaması barədə" Ekologiya və Təbii Sərvətlər Nazirliyinə daxil olmuş məktubunuzda qeyd olunanlar 4 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən Hökməli bələdiyyəsi nümayəndəsinin iştirakı ilə yerində araşdırılmışdır.**

Əraziyə keçirilən baxış zamanı tullantıların Hökməli bələdiyyəsi tərəfindən təmizlənərək aidiyyəti üzrə tullantılar poliqonuna daşındığı müəyyən edilmiş, gələcəkdə belə halların təkrarlanmaması ilə bağlı onlara xəbərdarlıq olunmuşdur.

**Muxtar BABAYEV,**
**ekologiya və təbii sərvətlər naziri**

### Keçili kənd məktəbi üçün yeni binanın tikilməsi ilə bağlı Elm və Təhsil Nazirliyinə müraciət edilmişdir

**"Sizin 16 noyabr 2023-cü il tarixli məktubda Şəmkir rayonunun Keçili kəndində fəaliyyət göstərən Əhməd Həsənov adına tam orta məktəbin baxımsız vəziyyətdə olması barədə ünvanladığınız müraciət müvafiq qaydada araşdırılmışdır.**

Bildiririk ki, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin yaradılması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 nömrəli 29 yanvar 2014-cü il tarixli qərarına əsasən, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi yaradılmışdır. Təhsil obyektlərinin təmiri, bərpası, gücləndirilməsi və yeni təhsil obyektlərinin tikintisi sözügedən idarə tərəfindən təmin olunur. Həmçinin "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 500 nömrəli 29 yanvar 2019-cu il tarixli fərmanına uyğun olaraq dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planının 7.3.35.17-ci bəndində qeyd olunan Plankənd kənd 1 nömrəli tam orta məktəbin (indiki Əhməd Həsənov adına Keçili kənd tam orta məktəb) əsaslı təmirinin əsas icraçısı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyidir.

Odur ki, Əhməd Həsənov adına Keçili kənd tam orta məktəb binasında əsaslı təmirin zəruri olduğunu nəzərə alaraq, yenidən tikintisi üçün tərəfimizdən 5-76/2-9-29-173/2023 nömrəli 20 iyul 2023-cü il tarixli rəsmi məktubla Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə müraciət edilmişdir.

***Aynur ABDULLAYEVA,***
***Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri***

### Yeni məktəb tikintisi məsələsinə növbəti illərdə baxılacaq

**Şəmkir rayonu Keçili kənd 1 nömrəli tam orta məktəbin texniki vəziyyəti ilə bağlı Elm və Təhsil Nazirliyinə daxil olmuş müraciətinizə baxılmışdır.**

Qeyd olunan məsələ ilə bağlı bildiririk ki, Keçili kənd 1 nömrəli tam orta məktəbi layihə tutumu 540 şagird yerlik olmaqla 1973-cü ildə inşa olunmuş birtipli binada fəaliyyət göstərir və hazırda 681 şagird təhsil alır. 2018-ci ildə mərkəzləşdirilmiş büdcədən ayrılan vəsait hesabına məktəbin dam örtüyü təmir olunmuşdur. Məktəb binasında əsaslı təmir və bərpa gücləndirmə işlərinin aparılmasına zərurət yaranmışdır.

Bildiririk ki, təhsil müəssisələrinin təmir-tikintisi dövlət büdcəsindən Elm və Təhsil Nazirliyinə ayrılmış vəsait çərçivəsində prioritetlik dərəcəsinə uyğun olaraq mərhələli şəkildə həyata keçirilir.

Eyni zamanda qeyd edirik ki, 2023-cü ildə dövlət əsaslı vəsait qoyuluşu hesabına Şəmkir şəhər C.Rüstəmov adına 1296 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirilməsi və əsaslı təmiri, həmçinin Ə.Cavad adına 624 şagird yerlik tam orta məktəbin əsaslı təmiri və 22 əlavə sinif otağının tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanması işləri tamamlanmış və hazırda təmir-tikinti işlərinə hazırlıq aparılır. Bundan əlavə, cari ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Şəmkir şəhər Məhəmməd Füzuli adına 1600 şagird yerlik təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılış mərasimi həyata keçirilmişdir.

Qeyd olunanları nəzərə alaraq bildiririk ki, sözügedən təhsil müəssisələrinin tikintisi məsələsinə növbəti illərin dövlət investisiya proqramları çərçivəsində baxılacaqdır.

***Mətin KƏRİMLİ,***
***Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri***

### Qəsəbədaxili yolların təmiri mərhələli qaydada aparılır

**Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Füzuli küçəsində yolların əsaslı təmir edilməsi ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyətinə daxil olmuş məktubunuza baxılmışdır.**

Problemin qaldırıldığı ünvanda yollar uzun müddət istismar olunduğundan yararsız vəziyyətə düşməsi səbəbindən əsaslı təmir-bərpa işlərinin aparılmasına zərurət yaranmışdır.

Məlumat üçün bildiririk ki, qeyd olunan ünvanda yolların əsaslı təmir olunması Binəqədi rayonu ərazisində asfaltlanmasına ehtiyac olan qəsəbədaxili yolların tərəfimizdən tərtib olunan siyahısına daxil edilərək müvafiq köməklik göstərilməsi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə təqdim olunmuşdur. Agentlik tərəfindən investisiya proqramları çərçivəsində ayrılacaq maliyyə vəsaitindən asılı olaraq yolların təmir işlərinin mərhələli qaydada həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Nəzərə almağınız xahiş olunur.

***Elxan ALLAHVERDİYEV,***
***Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı***

### Subartezian quyularının nasos aqreqatı yaxın zamanda təmir olunacaq

**Qəzetinizin 8 dekabr 2023-cü il tarixli sayında dərc edilmiş "Qəsəbəmizin subartezianı fasilələrlə işləyir" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində görülmüş tədbir barədə redaksiyaya məlumat verilməsi ilə əlaqədar rayon icra hakimiyyətinə ünvanladığınız müraciət araşdırılmışdır.**

Araşdırma zamanı Qızılhacılı qəsəbə sakini Qənifə Məmmədovanın istifadəçisi olduğu 06/509 nömrəli subartezian quyusunun transformatoruna əlavə olaraq 20 abonentin qoşulması nəticəsində quyuya quraşdırılmış nasos-aqreqatın yararsız hala düşdüyü məlum olmuşdur.

Rayon Suvarma Sistemləri İdarəsi qeyd olunan subartezian quyusunun nasos-aqreqatının yaxın zamanda təmir olunaraq quyunun iş rejiminin bərpa edilməsinin nəzərdə tutulduğunu və hazırda həmin ərazinin Sol Sahil Tərtər kanalından suvarma suyu ilə təmin olunduğunu bildirmişdir.

***S.NAZAROV,***
***Goranboy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini***

# Ağalının ağ libası







**Ölkə ərazisində bir neçə gündür davam edən qarlı hava şəraiti Zəngilanı da ağ örpəyə bürüyüb. AZƏRTAC xəbər verir ki, son günlər rayona, o cümlədən Ağalıya yağan qar hər tərəfi bəmbəyaz edib.**

**Ağalıdan göz oxşayan görüntüləri təqdim edirik.**


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə
## *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


AZƏRBAYCAN
Bütöv Azərbaycanda Zəfər seçkisi
Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığı uğurludur
50 çeşiddə məhsul, 13 ölkəyə ixrac
Yaşıl vətən
Mədəniyyət: mənəviyyatımızın aynası

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Böyük Qələbəmizin ilk addımları"





Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası və A.Şaiq adına 2 nömrəli kitabxana filialı Yasamal rayon Heydər Əliyev Mərkəzi ilə birgə Azərbaycan Ordusunun 1994-cü ilin yanvar ayında Füzuli rayonunun Horadiz qəsəbəsinin və bir sıra Arazboyu kəndlərinin erməni işğalından azad edilməsinin 30 illiyinə həsr olunmuş "Böyük Qələbəmizin ilk addımları" adlı tədbir keçiriblər.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən, şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Böyük Qələbəmizin ilk addımlarının 30 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova çıxış edərək ötən əsrin 90-cı illərində ölkəmizdəki siyasi vəziyyət, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsi, bu böyük şəxsiyyətin dövlət quruculuğu istiqamətində atdığı qətiyyətli addımları haqqında danışıb. Bildirib ki, Ulu Öndər daima çıxışlarında torpaqlarımızın erməni işğalından mütləq azad olunacağını xüsusi olaraq vurğulayırdı. Ümummilli Lider böyük inamla deyirdi: "Azərbaycanın işğal olunmuş torpaqları azad olunacaq! Əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar. Buna heç şübhə yoxdur". L.Məmmədova Azərbaycan Ordusunun ilk qələbələrindən ətraflı söz açıb.

A.Şaiq adına 2 nömrəli kitabxana filialının müdiri vəzifəsini icra edən İradə Hüseynova, Əməkdar müəllim, Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi-tədqiqat mərkəzinin elmi işçisi Zülfiyyə Vəliyeva, "Haqq-ədalət yolu, türk dünyası" ictimai birliyinin sədri, xeyriyyəçi Şükufə Qarabağlı, Yasamal rayon Heydər Əliyev Mərkəzinin bələdçisi Mayrux Cavadova mövzu ilə bağlı çıxış ediblər.

"Azərbaycan Respublikasının şəhid ailələri, müharibə əlilləri və veteranlarının müdafiəsi" İctimai Birliyinin Cəbrayıl rayon şöbəsinin sədri, qazi Səməd Atakişiyev keçdiyi döyüş yolundan danışdı, 30 il əvvəlki xatirələrini yada saldı, onunla bir yerdə döyüşən hərbçilərin igidliyindən söz açdı. Çıxışının sonunda şəhid ailələrinin, qazilərin tədbirlərindəki xidmətlərinə görə İradə Hüseynovanı fəxri fərmanla mükafatlandırdı.

Xocalı soyqırımının şahidi, qazi Valeh Hüseynov müharibədə və əsirlikdə olduğu günlərin ağrı-acılarından söhbət açdı. Şəhid Əmrulla Əliyevin atası Vahid Əliyev yeganə oğlunun ömür və döyüş yolundan iftixarla danışdı.

Birinci və İkinci Qarabağ müharibəsində iştirak etmiş qazilərdən Emin Piriyev, Roman İsmayılov, Tacir Bayramov, Zərxanım Rəsulova, Kənan Əhmədov, Akif Yunusov, Səbuhi Məhərrəmov, Cəfər Məmmədov, Seyfulla Niftalıyev, Azər Əhmədov, Ədalət Məhərrəmov və başqaları çıxışlarında qeyd etdilər ki, Vətən müharibəsi Azərbaycan tarixində əbədi qalacaq şanlı səhifədir.

Tədbirin bədii hissəsində vətənpərvərlik və qəhrəmanlıq mövzusunda şeirlər səsləndirildi, mahnılar ifa olundu. Vətənpərvər şair, "Qızıl Qələm" mükafatı laureatı Nazlı Yazar "Qələbə qazandılar ulduz hilalıyla" şeirini söylədi, "Musiqiçilər" İctimai Birliyinin sədri, 2019-cu ildə Bakıda keçirilən Gürcüstan-Azərbaycan Musiqi Festivalının laureatı Elxan Rəsuloğlu, gitara ifaçısı Valeh Xocalı, Vətən müharibəsi iştirakçısı, xanəndə Nail Laçınlı, 239 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi, turba çalğı alətinin və vətənpərvər mahnıların ifaçısı Kərim Cəlilov, gitarada qazilər Emil Piriyev və Roman İsmayılov zövqləri oxşayan musiqi nömrələri ifa etdilər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikası Audiovizual Şurası
## *müsabiqə elan edir*

Azərbaycan Respublikası Audiovizual Şurası **ümumölkə yerüstü radio yayımçısı** lisenziyasının verilməsi üçün 26 yanvar 2024-cü il tarixdən 04 mart 2024-cü il tarixədək müsabiqə elan edir.

Yayım üçün radiotezliklər: Bakı Teleqüllə Kompleksi - 93.0 MHs, Ağstafa rayonu "Poylu" RTYS - 105.7 MHs, Quba rayonu "Dağlı" RTYS - 104.7 MHs, Şirvan şəhəri "Şirvan" RTYS - 104.5 MHs.

Müsabiqədə iştirakla bağlı bütün məlumatları Azərbaycan Respublikası Audiovizual Şurasının rəsmi vebsaytının (www.acra.gov.az) "Müsabiqə elanları" bölməsinə daxil olmaqla almaq olar.

**Telefon: (012) 598-32-24; (012) 434-81-07.**

***Azərbaycan Respublikası Audiovizual Şurası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## ASCO-nun struktur idarələrinə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 31 yanvar 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Tramp prezident seçiləcəyinə əmindir

ABŞ-nin keçmiş prezidenti Donald Tramp 2024-cü ildə Nyu Hempşirdə keçirilən Respublikaçıların ilk praymerizində qalib gəldiyini elan edib. Sabiq ölkə lideri bu qələbəni ən vacib qələbə adlandırıb və noyabrda prezident seçiləcəyinə əminliyini bildirib. O bundan əvvəl bu ştatda iki dəfə - 2016-cı və 2020-ci illərdə praymerizdə qalib gəlib.





Bülletenlərin 91,2 faizinin hesablanmasının nəticələrinə əsasən, Donald Tramp 54,6 faiz, onun əsas rəqibi, ABŞ-nin BMT-dəki keçmiş daimi nümayəndəsi Nikki Heyli isə 43,4 faiz səs toplayıblar.

Nyu Hempşirdə 15-18 iyul tarixlərində Viskonsin ştatının Miluoki şəhərində keçiriləcək qurultayda partiyanın prezidentliyə namizədini seçəcək 2429 nümayəndədən 22-nin səsləri uğrunda mübarizə gedib. Onların səsləri 10 faizdən çox səs toplayan namizədlər arasında proporsional olaraq bölünür. Beləliklə, Tramp ilkin olaraq Nyu Hempşirdən 11, Heyli isə 8 nümayəndənin səsini toplayıb. Lakin bu, yekun nəticələr deyil. Namizədlərdən birinin rəsmi olaraq irəli sürülməsi üçün azı 1215 səs toplaması lazımdır.

Xatırladaq ki, yanvarın 15-də Tramp 40 nümayəndədən 20-nin dəstəyini qazanaraq Ayova ştatında keçirilən kokuslarda da qalib gəlib. Heyli 9 nümayəndənin səsini əldə edib.

İlkin nəticələr elan olunduqdan sonra Tramp "Fox News"a müsahibəsində deyib: "Mən nəticədən çox qürur duyuram". Telekanalın aparıcısı Lora İnqrem isə bildirib ki, Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp, hüquqi problemlərə baxmayaraq, seçicilərin qəlbini qazandığı üçün Nyu Hempşirdə ilkin seçkidə qalib gəlib: "Günün sonunda Donald Trampın niyə qalib gəldiyini anlayırıq. O, respublikaçı seçicilərin ürəyini və ruhunu qazandığı üçün qalib gəldi və bu onun barəsində çıxarılmış ittiham aktından sonra müzakirə olunur".

Aparıcı həmçinin Trampın rəqibi Nikki Heylini prezidentlik yarışını tərk etməyə çağırıb, çünki indi "onun zamanı deyil".

Öz növbəsində, Heyli də Trampı qələbəsi münasibətilə təbrik edib, lakin xəbərdarlıq edib ki, partiyanın namizədliyi uğrunda mübarizə hələ bitməyib və onun rəqibi fevralda Cənubi Karolina ştatında keçiriləcək növbəti praymerizdə daha çətin anlar yaşayacaq.

ABŞ-də prezident seçkiləri 2024-cü il noyabrın 5-nə təyin edilib. Hazırkı dövlət başçısı Co Bayden də onlara qatılacağını açıqlayıb. Trampın Ayovadakı qələbəsindən sonra Bayden onu respublikaçılar arasında aşkar favorit adlandırıb.

Son məlumata görə, ABŞ-nin keçmiş prezidenti Donald Tramp Cənubi Karolina ştatından olan senator Tim Skottu potensial vitse-prezident kimi nəzərdən keçirdiyini bildirib. O, Skottun vitse-prezident olması ilə bağlı sualı cavablandırarkən, " düşündüyüm adamdır" deyib. Qeyd olunur ki, Skott Respublikaçılar Partiyasından prezidentliyə namizədlərdən biri idi, lakin sonradan o, namizədliyini geri götürüb və Ağ Evə qayıtmaq üçün kampaniyası çərçivəsində Trampı dəstəkləyib. Skottun fikrincə, ABŞ-yə ölkəni birləşdirə biləcək lider lazımdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Göygöldə moruqçuluq gəlirli sahə hesab olunur

## Rayonda bu sahə ilə məşğul olan özəl təsərrüfat da yaradılıb

Son illər Göygöl rayonunda moruq təsərrüfatlarının yaradılmasına maraq xeyli artmışdır. İqtisadi cəhətdən gəlirli olan bu giləmeyvəni əsasən dağətəyi kəndlərdə yaşayan sakinlər yetişdirirlər.

Rayonda moruqçuluq üzrə bir neçə özəl təsərrüfat da yaradılmışdır. Onlardan biri Səmədli qəsəbəsi ərazisində fəaliyyət göstərən "FROZENİK" MMC-dir. 2023-cü ildə yaradılmış təsərrüfat tərəfindən 11 hektarda intensiv moruq bağı salınmışdır. Bağı daimi suvarma suyu ilə təmin etmək üçün ərazidə subartezian quyusu qazılmış,



su hovuzu tikilmiş və su itkisinə yol verməmək üçün damcı suvarma qurğusu quraşdırılmışdır.

Təsərrüfatda hazırda "Polka", "Polana" və yerli moruq növləri yetişdirilir. "Polka" növü digərlərindən daha məhsuldar olduğu üçün təsərrüfatda onun yetişdirilməsinə üstünlük verilir. İl ərzində hər hektar sahədən orta hesabla 8-10 ton moruq yığımı proqnozlaşdırılır. Bu zaman təsərrüfata 50 nəfərədək işçi qüvvəsinin cəlb edilməsi nəzərdə tutulur.

Yetişdirilən məhsul hələlik ölkə daxilində satılacaq. Gələcəkdə isə onun ixracı da həyata keçiriləcək.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***


## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**
**Tiraj 3729**
**Sifariş 144**
**Qiymətı 60 qəpik**